www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 may 2018-ci il Çərşənbə № 106 (6995) Qiyməti 60 qəpik

**Xəbər**

**Həyat imtahanından "kəsilənlər"- iki abituriyentin intiharının şok təfərrüatları**

yazısı səh.10-da

**Gündəm**

## Qüds qətliamı da ərəb ölkələrini birləşdirə bilmədi - səbəb



Türkiyədən sərt təpki gəldi, ABŞ və İsraildəki səfirlər geri çağırıldı; Bakıdakı səfirliklərdə də bayraqlar endirildi

yazısı səh.9-da

## "Dərman mafiyası" haqda yeni məlumatlar

yazısı səh.3-də

## Nazarbayevin fantastik "dənizdən dənizə" təşəbbüsünə ilk reaksiya

yazısı səh.6-da

## Müxalifət xaricdəkiləri nə üçün hədəfə alıb-ilginc səbəblər...

yazısı səh.3-də

## Bakıda hərbi parad hazırlığı

yazısı səh.6-da

## Qarabağ danışıqları dondurulur - təhlükəli gəlişmə

yazısı səh.11-də

## Ələt Azad İqtisadi Zonası iqtisadiyyatımıza nə verəcək - gözləntilər...

yazısı səh.4-də

## Boşanmalar parlamentin komitə iclasında müzakirə edildi

yazısı səh.13-də

## Neft qiymətini dünyadakı münaqişə ocaqları diktə edir

yazısı səh.15-də

## Əfv Komissiyası 1000-dək müraciətə baxıb

yazısı səh.2-də

## Acemoğlu Ermənistanı dalandan çıxara bilərmi?

yazısı səh.15-də

# PUTİNİN ADAMI PAŞİNYANI ƏKS-İNQİLABLA HƏDƏLƏDİ - "YUŞŞENKO VƏ SAAKAŞVİLİ DƏ..."

Soçidəki ikitərəfli görüşdən sonra Kremlin Ermənistanla bağlı əsas hədəfi üzə çıxır; **Moskvadan İrəvana sərt xəbərdarlıq:** "Eyni vaxtda Qərbin və Rusiyanın dostu olmağa qoymayacağıq..."




yazısı səh.8-də

# Heydər Əsədova milyonluq villa üçün torpağı kim bağışlayıb-təfərrüat

## Keçmiş kənd təsərrüfatı nazirinin mülkləri haqda ilginc məlumatlar

yazısı səh.10-da



## Əli Həsənov qaçqınları xələfinin üstünə qaldırdı

yazısı səh.5-də



## İsgəndər Həmidovdan eks-prezidentə çox sərt sözlər

yazısı səh.7-də



Allahşükür Paşazadə

## Şeyx mollalara xəbərdarlıq elədi: "Bu işi tutanlar..."

yazısı səh.13-də



## Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binasının açılışı olub

**Mayın 15-də Bakıda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binasının açılışı olub. APA-nın məlumatına görə, prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.**

Dövlət başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsiblər və burada yaradılan şəraitlə tanış olublar.

Təhsil naziri Ceyhun Bayramov kompleksdə görülən işlər barədə məlumat verib.

## Heydər Əliyev Beynəlxalq Hava Limanında "ASAN Viza" fəaliyyətə başlayıb



**Mayın 15-dən "ASAN Viza" özünəxidmət terminalları vasitəsilə Heydər Əliyev Beynəlxalq Hava Limanında əcnəbilərə vizaların verilməsinə başlanılıb.**

APA-nın xəbərinə görə, "ASAN Viza vasitəsilə hava limanında 15 ölkənin - Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Cənubi Koreya, Çin, İran, İsrail, İndoneziya, Küveyt, Qətər, Malayziya, Oman, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə və Yaponiya vətəndaşları üçün birbaşa vizaların verilməsi təmin ediləcək.

Quraşdırılmış "ASAN Viza" özünəxidmət terminalları xüsusi təyinatlı ümumvətəndaş pasportu oxuyucuları, elektron ödəmələr üçün posterminallar və nəğd ödəmələr üçün əsginaz qəbuledicilərlə təmin olunub.

"ASAN Viza" portalı və özünəxidmət terminalları Azərbaycan, ingilis, fransız, ispan, ərəb, fars və rus dilində olmaqla - 7 dildə fəaliyyət göstərir.

Özünəxidmət terminalları ilə yanaşı 4 pəncərədə viza verilməsi və bank xidmətləri də həyata keçiriləcək ki, bu da ölkəyə gələn əcnəbilərə vizaların verilməsində əlavə köməklik göstərəcək.

Orta hesabla bir əcnəbi vətəndaş üçün vizanın verilməsi 2 dəqiqə ərzində təmin olunacaq.

Hazırda "ASAN Viza" portalı vasitəsilə 95 ölkəyə elektron viza verilməsi təmin edilir. Bütün sistem tam avtomatlaşdırılıb və mövcud elektron viza sistemi vasitəsi ilə ölkəyə gəlməzdən əvvəl 3 gün (standart) və 3 saat (təcili) ərzində vizaların verilməsi www.evi-za.gov.az saytı vasitəsilə həyata keçirilir.

## Sabirabadda yeni doğulan 2 körpə ölüb

**Sabirabadda körpə ölümü qeydə alınıb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Sabirabad Rayon Mərkəzi Xəstəxanasının doğum şöbəsində gecə radələrində 2 körpə doğuşdan sonra ölüb.**

Saatlı rayonu Yeni Novruzlu kənd sakini, 1996-cı il təvəllüdlü Əhmədova Saniyə Daxiləli qızının gecə saatlarında doğulan oğlu səhər saatlarında keçinib.

Həmin saatlarda Sabirabad rayonunun Əsgərbəyi kənd sakini, 1995-ci il təvəllüdlü Yusifova Rəvanə Rahil qızının dünyaya gətirdiyi qız körpəsi də bir neçə saatdan sonra ölüb.

Körpələrin hansı səbəbdən öldüyü hələlik məlum deyil. Uşaqların valideynləri hüquq-mühafizə orqanlarına müraciət ediblər. Körpələrin meyiti Sabirabad Məhkəmə Tibbi Ekspertiza Və Patoloji Anatomiya Mərkəzinə aparılıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Paşinyan Azərbaycana silah satılmasına etiraz etdi

**Ermənistan Belarusla Azərbaycana silah satışını müzakirə edib. Modern.az Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu barədə yeni baş nazir Nikol Paşinyan bildirib.**



Soçidə keçirilən görüşü zamanı Ermənistan baş naziri Nikol Paşinyan Belarus prezidenti Aleksandr Lukaşenka ilə Azərbaycana silah satışını müzakirə etdiyini bildirib. Cavabında isə Belarus prezidentinin münasibətinin çox normal olduğunu vurğulayıb.

Jurnalistlərin Rusiya prezidenti Vladimir Putinlə görüşü barədə sualından isə yayınıb.

"Mən bu format barəsində belə ayaqüstü məlumat vermək, yekunlaşdırmaq istəməzdim. Amma qeyd etmək istərdim ki, ən geniş məsələlər müzakirə olunub. Bu görüş çox effektiv olub" - Paşinyan bildirib.



## ABŞ İranın nüvə proqramına dair sazişin iştirakçılarına təzyiq göstərir?

**"ABŞ İranın nüvə proqramına dair sazişin iştirakçılarına təzyiq göstərir".**

Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov filippinli həmkarı Alan Piter Kaetano ilə keçirdiyi birgə mətbuat konfransında bildirib.

"İranla nüvə sazişinin iştirakçılarına ciddi təzyiq göstərildiyini görürük. İranla ticarət əlaqələrinin kəsilməsinin vacibliyi ilə bağlı ultimatumlar verilir. Bu cür plan kütləvi təzyiqdir", - deyə o qeyd edib.

Rusiya XİN başçısı bildirib ki, avropalı həmkarları İranla ticarət-iqtisadi əlaqələrində ABŞ-dan asılılığına son qoymağa hazırlaşdıqlarını deyib: "Bir şey aydındır. ABŞ İranla nüvə sazişindən çıxaraq bu sənədlə bağlı bütün hüquqlarını itirib. Məncə, onlar bunu inkar da etmirlər".

## Bakıda NATO qrupu ilə görüş

**NATO ilə əməkdaşlıq çərçivəsində Bakıda ilk dəfə tərəfdaşların arxa cəbhə ekspertlərinin daimi qrupu ilə hərəkət və nəqliyyat, dayanıqlı planlaşdırma və hərəkət sərbəstliyi mövzularında görüşü keçirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, mayın 18-dək davam edəcək tədbirdə 13 ölkədən 24 nümayəndə iştirak edir. Ekspert qrupunun əsas məqsədi NATOəməliyyatlarına töhfə verən tərəfdaş ölkələrin maddi-texniki təminat bölmələrinin imkanlarını müəyyənləşdirərək səmərəli istifadəsi üçün inkişaf etdirmə yollarını tapmaqdır.



## "Krım körpüsü" açıldı, Putin «KamAZ» sürdü

**Rusiya prezidenti Vladimir Putin dünən Rusiyanın materik hissəsini Krım yarımadası ilə birləşdirən "Krım körpüsü"nün təntənəli açılış mərasimində iştirak edib.**

Virtualaz.org Rusiya mətbuatına istinadən xəbər verir ki, dövlət başçısı «KamAZ» yük avtomobilinin sükanı arxasına keçərək, körpü ilə ilk hərəkət edən maşını idarə edib.

Körpünün uzunluğu 19 kilometrdir. Onunla paralel dəmir yolu körpüsü də tikilməkdədir. Avtomobil körpüsünün tikintisinə 2016-cı ildə başlanıb. Körpüdə yol verilən sürət həddi saatda 120 kilometrdir.

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, "Krım körpüsü" Putinin ən iddialı layihələri belə həyata keçirmək bacarığının sübutudur.



## Azərbaycanda ən yüksək maaş hansı sahələrdə verilir?

**2018-ci il aprelin 1-i vəziyyətinə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 532,3 min nəfər olub, onlardan 888,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 643,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.**

Muzdla işləyənlərin 21,7 faizi təhsil, 19,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,5 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,2 faizi tikinti, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11,1 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar. ("Trend")

2018-ci ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,5 faiz artaraq 532,4 manat olub. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əmək haqqı daha yüksək olub.



## Əfv Komissiyası 1000-dək müraciətə baxıb

**Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

APA-nın xəbərinə görə, iclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb və onların əksəriyyətinə müsbət rəy verilib.

Komissiyanın indiyədək keçirilən iclaslarında 1000-dək müraciətə baxılıb.

Qeyd edək ki, komissiyanın iclasları yekunlaşandan sonra əfv olunacaq şəxslərin siyahısı prezidentə təqdim olunacaq.

## Bakıda hava yağmursuz olacaq

**Mayın 16-da Bakıda və Abşeron yarımadasında havanın az buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, havanın temperaturunun Abşeron yarımadasında gecə 15-18, gündüz 23-28, Bakıda gecə 16-18, gündüz 26-28 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında da havanın əsasən yağmursuz keçəcəyi, lakin günün birinci yarısında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 14-19, gündüz 25-30, dağlarda gecə 4-9, gündüz 13-18 dərəcə isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza görə, mayın 16-da Abşeron yarımadasında meteoroloji amillərin əsasən normal sutkalıq gedişi və komfort temperatur şəraiti meteohəssas insanlar üçün əlverişlidir.

## Mahmud Abbas xəstəxanaya yerləşdirilib

**Fələstin lideri Mahmud Abbas xəstəxanaya yerləşdirilib. APA-nın məlumatına görə, bu barədə WAFA agentliyi məlumat yayıb.**

Bildirilir ki, M. Abbas Ramallahda yerləşən xəstəxanada orta qulağından əməliyyat olunacaq.

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018




# “Dərman mafiyası” haqda yeni məlumatlar

## Qaçaqmal dərman üçbucağının əsas isimləri istintaqdan kənar gəzir; Sadiq Abduyevi qoruyan general kimdir?

**Dövlət Gömrük Komitəsində (DGK) yüksək post tutan vəzifəlilərlə bağlı istintaq davam edir. Hər ötən gün işdən kənarlaşdırılan vəzifəlilərin “dərman mafiyası”na bağlılıqları haqda yeni məlumatlar gəlməkdədir.**

Yada salaq ki, bu il aprelin 30-da DGK-nın yüksək vəzifəli şəxslərinin də içində olduğu “dərman mafiyası” ifşa olunub. Üç gün sonra, mayın 3-də isə DGK sədrinin müvafiq əmrinə əsasən, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyev və Tibbi Xidmət İdarəsinin rəisi Fikrət Qədiməliyev sərəncama götürülüblər.

Hazırda isə istintaqda yalnız Fikrət Qədiməliyevin adı əsas fiqurant kimi çəkilir. Sadiq Abduyev isə sanki heç komitədə yüksək post tutmayıb, “dərman mafiyası” ilə əlaqələri də olmayıb. Əslində isə “dərman mafiyası” adlı şəbəkə ilə DGK rəsmilərindən Fikrət Qədiməliyevlə Sadiq Abduyev işləyiblər. “Dərman mafiyası” üçbucağının bir tərəfində Fikrət Qədiməliyev, digərində Sadiq Abduyev dayanıb. Dərmanlar ölkəyə onların qeyri-rəsmi izni ilə daxil olub, başqa adlar altında rəsmiləşdirilərək ən müxtəlif aptek şəbəkələrinə dağıdılmaqla əhaliyə satılıb.

Bəs hazırda Sadiq Abduyev istintaqdan niyə kənar saxlanılır?

Belə məlumatlar var ki, Sadiq Abduyev bir generalın yaxın qohumudur. DTX “dərman mafiyası”na qarşı əməliyyatı gerçəkləşdirəndən sonra onun da adı istintaqa cəlb edilən şəxslərin siyahısında olub. Sonradan isə işə Sadiq Abduyevin general qohumu qarışıb və onu istintaqçıların əlindən qurtara bilib. Onun əvəzində istintaqa ölkəyə mal buraxmaq səlahiyyəti olmayan əməkdaşlar cəlb olunublar. Onların səlahiyyət həddin Bakı Hava Limanındakı xüsusi mühafizə zonasına mal-materialların buraxılması üçün yetərli olmayıb. Belə əmrlər verilməsi Sadiq Abduyevin səlahiyyətində olub ki, o da hazırda azadlıqda gəzir.

Məlum əməliyyatdan sonra Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin 1-ci yük şöbəsinin rəisi Araz Məmmədov da sərəncama götürülsə də, o da yaxasını istintaqdan kənar tuta bilib.

Fikrət Qədiməliyevə gəlincə isə onu da həbs etməyiblər. Tibb xidməti generalının barəsində həbs-qətimkan tədbiri seçilməyib. Məhkəmə bunu Fikrət Qədiməliyevin xəstə olması ilə əlaqələndirib və barəsində polisin nəzarətinə vermə qətimkan tədbiri çıxarılıb. Digər aşağı vəzifəli gömrükçülərin isə istintaqa mane ola biləcəkləri ehtimalı əsas götürülməklə barələrində həbs-qətimkan tədbirləri seçilib.

Belə xəbərlər də var ki, istintaq ilkin mərhələdə “dərman mafiya”sına bu və ya başqa şəkildə bağlılığı olan vəzifə sahiblərindən kənar keçsə də, sona qədər belə mövqe sərgilənməyəcək. Məsələnin ən yüksək səviyyədə nəzarətə alınacağı gözlənilir. Bu isə o deməkdir ki, işdə əli olan hər kəs cəzalandırıla bilər. Yada salaq ki, məlum əməliyyatla bağlı redaksiyamıza daxil olan xəbərlərin birində deyilirdi ki, Fikrət Qədiməliyev istintaqla əməkdaşlığa razılıq verib. O, kiminlə işləyiblərsə, hər kəsin adını çəkəcəyini söyləyib. General-mayor bunun əvəzində şəxsi toxunulmazlıq və şərti cəza istəyib.

Hazırda Dövlət Təhlükəsizlik Xidmətində davam edən cinayət işi üzrə toplanmış ilkin sübutlar əsasında gömrük orqanlarında vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə qaçaqmalçılıq və külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməllərinə görə Fərman Həmzə oğlu Məmmədli, Vasif Teymur oğlu Xıdırov, Cəmil Səlim oğlu Mehtiyev, Ateş Adem oğlu Atanur, Anar Kamran oğlu Məmmədov, həmçinin Əlamət Nazim oğlu Quliyevə müvafiq olaraq Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 (dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2, 206.3.3 (qaçaqmalçılıq) və 314.2 (səhlənkarlıq) maddələri ilə ittiham elan olunmaqla, barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib. Tibbi Xidmət İdarəsinin rəisi Fikrət Qədiməliyevə mayın 10-da ittiham elan olunub. Buna qədər isə DGK rəhbərliyi onu və Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyevi, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin 1-ci yük şöbəsinin rəisi Araz Məmmədovu, başqa bir neçə yüksək vəzifəlini tutduqları vəzifələrdən azad etməklə sərəncama götürüb. Rəsmi məlumatdan da məlum olduğu kimi, “dərman mafiyası” ilə DGK rəsmiləri qaçaq yolla ölkəyə gətirilən dərman preparatlarına görə 25 faiz haqq alıblar. İlkin istintaqla müəyyən olunub ki, xarici ölkə vətəndaşı Ateş Atanur, Azərbaycan Respublikasının vətəndaşı Anar Məmmədov 2016-cı ildən aprelin 30-dək satış məqsədi ilə dərman vasitələrinin ölkəyə qanunsuz yollarla gətirilməsini müntəzəm təşkil ediblər. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin vəzifəli şəxsləri bu dərmanların yük müşayiət sənədlərini dəyişdirərək Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Mərkəzi Gömrük Hospitalına çatması nəzərdə tutulan başqa məhsullar adı altında bəyan edilməsini, bu yolla qeyd olunan dərmanların ölkəyə qeydiyyatsız keçirilməsini təşkil etməyə görə əvvəlcədən hər yükün ümumi dəyərinin 25 %-i dəyərində haqq alıblar. Dərmanların ölkəyə qeydiyyatsız idxalını, gömrük nəzarətindən çıxarılaraq birbaşa dərman satışı ilə məşğul olan şəxslərə çatdırılmasını təmin ediblər.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Müxalifət xaricdəkiləri nə üçün hədəfə alıb-ilginc səbəblər...



## Natiq Miri: “Bəzi siyasi güc mərkəzləri ikili, hətta üçlü oyun oynayırlar”

**Sosial şəbəkələrdə müxalifətçilər arasında günlərdir davam edən virtual savaş səngimək bilmir. Bu qarşıdurma əsasən Avropadakı mühacir müxalifətlə Azərbaycan daxilindəki müxalifət arasında yaşanır. Söyüşlər, təhqirlər, aşağılayıcı ifadələr havada uçuşur...**

Məlumat üçün bildirək ki, bu savaş mayın 9-da ABŞ Konqresində Azərbaycandakı vəziyyətə dair dinləmələrdən sonra başlayıb. Həmin dinləmələrdə ABŞ Massaçuses Universitetinin tarix professoru Odri Alştadtın çıxışında AXCP sədri Əli Kərimlini Azərbaycanda fəaliyyət göstərən müxalifətin “marginal şəxsi” və ya “qocası” adlandırsa da, araşdırma aparmadan cəbhəçilər həmin tədbirə dəvət alan və orada çıxış edən Meydan.tv-nin qurucusu, Avropada yaşayan Emin Millinin üzərinə hücuma keçiblər. Bir növ dinləmələrdə Azərbaycan müxalifətinə yönəlik sərt çıxış edən, onların uğursuz siyasətçilər olduğunu deyən E.Millini müsavatçılar və cəbhəçilər bu şəkildə “cəzalandırmaq” istəyiblər.

Son olaraq, vəkil Aslan İsmayılov status yazaraq, ənənəvi müxalifəti sərt şəkildə tənqid edərək, yeni qüvvələrə səslənib. O, yeni qüvvələri köhnə müxalifətə baş qoşmamağa çağırıb. Onun bu statusu Ə.Kərimlinin “sağ əli” sayılan, Fransada mühacir həyatı yaşayan Natiq Ədilovun sərt reaksiyasına səbəb olub. O, cavab statusu paylaşaraq, vəkili təhqir edib, hətta hədələməkdən belə çəkinməyib. Digər AXCP fəalları da A.İsmayılovun üzərinə gedərək, onu “məhşər ayağı”na çəkiblər.

Son günlərdə yenidən start götürən bu virtual savaş bir çox məsələləri gündəmə gətirməklə yanaşı, bir sıra ehtimallara, iddialara yol açıb. Bunlardan biri ondan ibarətdir ki, ölkə müxalifətinin öndə gedən siyasətçiləri son zamanlar Avropadakı mühacir müxalifətin getdikcə güclənməsini, onların nüfuzlu beynəlxalq qurumlarla əlaqələrinin getdikcə genişlənməsindən əndişələnirlər, bir növ onları qısqanırlar.

**Politoloq Natiq Miri bildirdi ki, hər bir ölkədə baş verə biləcək dəyişikliklər vaxtı xarici qüvvələr həmin ölkənin daxilində fəaliyyət göstərən müxalifətin fəaliyyətini, onların gücünü, proseslərə təsir imkanlarını əsas götürürlər:** “Xüsusi xidmət orqanları Azərbaycanda ciddi şəkildə fəaliyyət göstərirlər. Onların araşdırmalarının nəticəsi olaraq, ortada bir çox ikili fəaliyyətin olduğunu aşkara çıxarırlar. Çünki bəzi siyasi güc mərkəzləri ikili, hətta üçlü oyun oynayırlar. Əvvəllər bəzi müxalif qüvvələr Qərbə inteqrasiya xəttini əsas götürsələr də, zaman-zaman bu xətdən imtina edərək Rusiya ilə müəyyən əməkdaşlıq forması tapmağa cəhdlər etdilər. Hətta qonşu İran dövləti ilə də müəyyən maliyyə mənbələri əldə etmək üçün danışıqların aparıldığı barədə informasiyalar mövcuddur. Bu da Qərbin xüsusi xidmət orqanlarının diqqətindən yayınası məsələ deyil. Ən nəhayət, ölkə daxilindəki müxalif qüvvələrin ictimai rəyə təsir imkanları əsas götürülür. Bu da son etiraz aksiyalarında bir daha göründü ki, həqiqətən də müxalif güc mərkəzlərinin gücü yalnız məhdud dairədən o tərəfə çıxmır”.

**N.Miri onu da qeyd etdi ki, xalqla bu qüvvələr arasında böyük bir sərhəd yaranıb:** “Bu sərhəd imkan vermir ki, xalqla siyasi güc mərkəzləri arasında birbaşa təmas yaransın. Yalnız kabinetlərdə oturub, virtual aləmdə müəyyən siyasət yürütməklə xalqı bir ideya ətrafında toparlamaq mümkün deyil. Xalq və müxalifətin ortaq təsəvvürləri mövcuddur, amma bunu həyata keçirmək nədənsə mümkün deyil. Bu təşkilatların yenilənmələrinə ehtiyac var. Əsas da yeni gənc nəfəslərlə müxalifət yenilənməlidir. Təəssüf ki, buna da imkan verilmir. Avropa ölkələrində fəaliyyət göstərən bir qrup insanlar var ki, bu insanların müəyyən mənada aktivləşmələrinə, tənqidlərinə dözümlü yanaşmırlar. Çünki bu insanları özlərinə həm alternativ, həm də təhlükə sayırlar. Əslində bu təhlükə onlar üçün deyil, Azərbaycan toplumu üçün ciddi təhlükə vəd edir. Çünki bu müxalifətin bütün ictimai-siyasi prosesləri öz monopoliyasına alması toplumun gələcək inkişaf perspektivlərinin önünü kəsir. Bunların varlığı hakimiyyətin dəyişməsinə imkan vermir. Təəssüf edirəm ki, müxalifət tənqidlərə bu qədər dözümsüzdür. Bu gün Avropa ölkələrində fəaliyyət göstərən bir qrup insanlar var ki, ola bilsin onların Qərbin xüsusi xidmət orqanları ilə birgə fəaliyyət göstərmələri nəticəsində bir çox hadisələri, araşdırmaları, müxalifətin tənqidlərini müşahidə edirik. Azərbaycanda müəyyən mənada müxalifət tənqid olunursa, bunun müqabilində xaricdəki müxalifəti qabartmağa ehtiyac yoxdur. Çünki onlar da Azərbaycana xeyir gətirəcək fəaliyyətlə məşğul deyillər. Onlar da Qərb ölkələrinin siyasi sifarişlərini yerinə yetirməklə məşğuldurlar ki, burada da nəticə etibarı ilə Azərbaycan toplumunun qazanacağı heç nə yoxdur”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Ələt Azad İqtisadi Zonası iqtisadiyyatımıza nə verəcək - gözləntilər...

**Azərbaycanın regional nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi hesab edilən Ələt Beynəlxalq Dəniz Limanı iki gün əvvəl istifadəyə verilib. Limanın ilk mərhələsinin fəaliyyətə başlaması Ələtdə formalaşdırılması nəzərdə tutulan Azad İqtisadi Zona ilə bağlı işlərin sürətləndirilməsi üçün əlverişli şərait yaradır.**



## Vüqar Bayramov: "Ələtdə regional əhəmiyyətli bir xab formalaşdırmaq olar"

Xatırladaq ki, Azərbaycan Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri ilə yalnız tranzit yüklərin sadəcə daşınmasını deyil, onlara əlavə dəyər qatılaraq daşınmasını təşkil etmək niyyətindədir. Azad İqtisadi Zonanın (AİZ) yaradılması həm də bu məqsədə xidmət edir. AİZ-in yaradılması barədə sərəncamı prezident İlham Əliyev 2016-cı ilin martında imzalayıb. Həmin ilin sentyabrda isə AİZ-in yaradılması üzrə məsləhətçilik işi dünyanın 3-cü böyük belə limanı olan Cəbəl-Əlinin yaradıcısı "DP World" şirkətinə həvalə olunub. Şirkətin mütəxəssislərinin iştirakı ilə "Ələt AİZ haqqında" qanun layihəsi hazırlanıb, Milli Məclisdə 2 oxunuşdan keçirilib.

Qanunla Ələt Azad İqtisadi Zonasına yüksək müstəqillik verilməsi nəzərdə tutulur. İndiyədək dünyada yaradılan azad iqtisadi zonaların xeyli hissəsi postsovet məkanında, xüsusən də Rusiyada yaradılan zonaların isə əksəriyyəti öz potensialına uyğun səviyyədə səmərəli fəaliyyət göstərə bilmir. "Ələt Azad İqtisadi Zonası haqqında" qanun layihəsi isə daha çox 1985-ci ildə Dubayda yaranmış və dünya praktikasında uğurla fəaliyyət göstərən azad iqtisadi zonalardan biri kimi özünü təsdiq etmiş Cəbələli azad ticarət zonasının fəaliyyət prinsiplərini özündə əks etdirən modelə uyğun hazırlanıb. Bu sahə ilə məşğul olan rəsmilərin açıqlamalarına görə,Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ətrafında da Dubaydakına bənzər bir AİZ modelinin reallaşdırılması nəzərdə tutulur. Qanunun əsas məqsədi təsərrüfat subyektləri üçün maksimum əlverişli vergi, gömrük, lisenziyalaşdırma, viza rəsmiləşdirilməsi və sair rejimləri yaratmaqla Ələt Azad İqtisadi Zonasını xarici şirkərlər, investorlar üçün cəlbedici etməkdir.Yəni belə zonalarda kənar müdaxilə ehtimallarını məhdudlaşdırmaqla, AİZ-in səlahiyyətli qurumuna geniş səlahiyyətlər verilir və səmərəli fəaliyyət imkanları yaradılır. Təsərrüfat subyektləri xüsusi rejim altında fəaliyyət göstərirlər. Dubaydakı AİZ-dəki kimi Ələtdə də birpəncərəli sistemin tətbiqi nəzərdə tutulur.

Qanun layihəsində Ələt iqtisadi zonasının səlahiyyətli qurumunun səlahiyyətləri, bu qurumun maliyyə mənbələri, developerin *(Azad Zona səlahiyyətli qurumu tərəfindən Azad Zonanın fəaliyyət və inkişaf məqsədləri üçün təsis olunan Azad Zona inzibati müəssisəsi)* hüquq və vəzifələri, developerin maliyyələşdirilməsi yolları, Azad Zona hüquqi şəxslərinin fəaliyyəti, lisenziyalaşdırma və icazə qaydaları, Azad Zonada vergi tənzimlənməsi, gömrük işinin təşkili, sərhəd rejimi və sair məsələlərlə bağlı hüquq və vəzifələr öz əksini tapıb.

Ələt qəsəbəsi Azərbaycanın ərazisindən keçən mühüm beynəlxalq nəqliyyat dəhlizləri: Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin avtomobil və dəmir yolu xətlərinin kəsişməsində yerləşir. İşlər nəzərdə tutulan səviyyədə qurulsa, Ələtin bu sahədəki müqayisəli üstünlükləri Xəzər dənizinin dünya okeanına birbaşa çıxışının olmaması ilə bağlı məhdudiyyətləri müəyyən dərəcədə kompensasiya edə bilər. Ələt Azad İqtisadi Zonası tam gücü ilə işləməyə başlayanda Azərbaycan tranzit ölkə olaraq öz imkanlarını genişləndirə biləcək və daha çox yükdaşımalara nail olacaq.

Ələt AİZ sayəsində qeyri-neft sektoruna əlavə şirkətlər cəlb ediləcək. Bu isə əlavə sərmayə, maliyyə, qabaqcıl texnologiya, müasir tələblərə cavab verən idarəetmə təcrübəsi və mədəniyyəti, rəqabət qabiliyyətli çoxsaylı təsərrüfat subyektlərinin yaradılması istiqamətində zəruri bir addımın atılması deməkdir.

Qeyd etdiyimiz kimi, Liman həm də Şimal-Cənub nəqliyyat dəhlizinin işləməsi üçün həlledici rola malikdir. Hansı ki, bu dəhlizdə işlərin sürətləndirilməsi də birbaşa ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Azərbaycan dəhlizin İran ərazisindəki hissəsinin - "Astara-Rəşt" dəmiryol xəttinin çəkilməsi üçün İrana 500 milyon dollar güzəştli kredit verib. Hazırda dəhlizin tikintisi üzrə işlər sürətlə davam etdirilməkdədir.

**İqtisadçı-ekspert, Sosial İqtisadi İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov hesab edir ki, Ələt AİZ-in fəaliyyətinin xüsusi qanunla tənzimlənməsi vacib amildir:** "Biz Azad İqtisadi Zonaya xüsusi səlahiyyətlərin verilməsini düzgün addım hesab edirik. Belə bir qanunu qəbul etməklə hökumət iş adamları qarşısında öhdəlik götürür və ona uyğun olaraq da güzəştlər, şərtlər müəyyənləşdirir. Bu, investisiyaların cəlbi baxımından çox vacib şərtdir. Bildiyiniz kimi, 2017-ci ilin yanvarında Vergi Məcəlləsinə çoxlu sayda dəyişikliklər olundu. Belə dəyişikliklər sahibkarlar, xüsusilə xarici sərmayədarlar üçün cəlbedici deyil. Buna görə də Azad İqtisadi Zonada çalışacaq iş adamlarının belə tez-tez olunan dəyişikliklərdən xüsusi qanunla qorunması lazımdır. Bu halda zonaya daha çox xarici investisiya cəlb etmək mümkün olacaq".

**Ekspert deyir ki, AİZ-in yaradılması Ələtin yalnız liman kimi deyil, həm də istehsal mərkəzi kimi formalaşmasına səbəb olacaq:** "Bildiyimə görə, hazırda Avropa və Körfəz ölkələri investorları ilə danışıqlar aparılır. Düşünürəm ki, hökumət Ələtdəki azad iqtisadi zonanın yaradılması işinə fokuslaşmalıdır. Bu, pilotdur, digər azad iqtisadi zonaların uğur qazanıb-qazanmamasında onun rolu böyük olacaq. Buna görə də hökumət hazırda bütün diqqətini bu zonaya yönəltməlidir".

**V.Bayramovun sözlərinə görə, Ələt limanı və AİZ birlikdə regional əhəmiyyətli bir xabın formalaşmasına gətirib çıxara bilər.**

❑ İqtisadiyyat şöbəsi,
"Yeni Müsavat"

# Respublika fənn olimpiadaları qalibləri mükafatlandırılıb




## Nazir: "33 mindən çox şagirdin iştirak etdiyi respublika fənn olimpiadaları artıq adi yarış deyil, elm və bilik hərəkatıdır"

**Mayın 15-də respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**



Musavat.com xəbər verir ki, tədbirdə təhsil naziri Ceyhun Bayramov, deputatlar, bir sıra dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və təhsil müəssisələrinin rəhbərləri, tanınmış ziyalılar, münsiflər heyətinin sədrləri və üzvləri, olimpiada qalibləri, təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

**Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Emin Əmrullayev** respublika fənn olimpiadalarının nəticələrinin analitik təhlili ilə bağlı təqdimatla çıxış edib. Bildirib ki, olimpiadanın nəticələrinə görə, 45 nəfər qızıl, 89 nəfər gümüş, 142 nəfər bürünc olmaqla, 276 nəfər, ümumilikdə isə Naxçıvan daxil olmaqla, 298 nəfər qalib elan olunub: "Hər il göstəricilərin yaxşılaşması sevindirici haldır. İnanıram ki, gələn il burada oturan şagirdlər daha yaxşı nəticə toplayacaqlar. Elan olunmuş qeyri-rəsmi nəticələrə görə bu il də şagirdlərimizdən biri artıq 700 bal toplayıb. Ötən il də 700 bal yığan şagirdlər bizim qalib şagirdlərdən olub. Qaliblərimizin əksəriyyəti tibb universitetini seçir. İxtisaslar isə çox dəyişməyib. Yenə də müalicə işi, hüquqşünaslıq öndədir. Eyni zamanda informasiya texnologiyalarına da maraq artıb. Beynəlxalq olimpiadalara gəlincə isə deyim ki, Azərbaycanın ötənilki nəticəsi 110 ölkə arasında 42-ci yerdir. İldən-ilə bu göstərici də yaxşılaşır. Beynəlxalq olimpiadanın qalibi olmaq böyük işdir".

Daha sonra isə söz təhsil naziri Ceyhun Bayramova verilib.

Olimpiada qaliblərini təbrik edən təhsil naziri qeyd edib ki, prezident İlham Əliyevin bu tədris ilinin əvvəlində Bakı şəhəri 20 nömrəli məktəb-liseyin açılışında etdiyi çıxış zamanı olimpiada nəticələrini xüsusi vurğulaması, bu nəticələri təhsilin keyfiyyətinin vacib amili kimi qeyd etməsi müvafiq sahənin ölkə rəhbərliyi üçün prioritet istiqamət olduğunun bariz göstəricisidir.

Təhsil naziri 33 mindən çox şagirdin iştirak etdiyi respublika fənn olimpiadalarının artıq adi yarış deyil, elm və bilik hərəkatına çevrildiyini vurğulayıb. Nazir qeyd edib ki, bu il respublika fənn olimpiadalarında əldə edilən 298 medalın 157-si Bakı, 141-i isə digər bölgələrin payına düşür. Ümumilikdə, Azərbaycanın 50 müxtəlif bölgəsində təhsil alan şagirdlər olimpiadanın qalibləri sırasına düşüb.

Beynəlxalq olimpiadalarda nəticələrin ildən-ilə yaxşılaşdığını və qısa müddətdə böyük nailiyyətlərin əldə edildiyini vurğulayan təhsil naziri bildirib ki, Azərbaycan məktəbliləri 1994-cü ildən beynəlxalq olimpiadalarda 314 medal qazanıb. Son 5 il ərzində isə məktəblilər 3 qızıl, 21 gümüş və 85 bürünc medal olmaqla ümumilikdə 109 medal qazanıblar ki, bu da müstəqillik dövründə qazanılmış bütün medalların təxminən 3 faizi edir.

Olimpiada qalibləri ilə bağlı yeni təşəbbüsün olduğunu diqqətə çatdıran Ceyhun Bayramov bildirib ki, beynəlxalq olimpiada qaliblərinin istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qaliblərinin isə qalib olduqları fənlərə uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul edilməsinə dair qanunvericilikdə müvafiq dəyişiklik təklifi Təhsil Nazirliyi tərəfindən aidiyyəti qurumlarla razılaşdırma mərhələsindədir: "Bölgələrdə biz aşağı siniflər üzrə qalib olanların Bakıda liseylərdə təhsil almaları üçün şərait yaradırıq. Hazırda ölkənin müxtəlif bölgələrindən olan 400-ə yaxın şagird Bakı şəhərində müxtəlif liseylərə yerləşdirilib. Onlar üçün yüksək şərait yaradılıb".

Tədbirdə respublika fənn olimpiadaları iştirakçılarının fikirlərinin və vaxtilə olimpiadalarda iştirak edən, hazırda dünyanın müxtəlif ölkələrində elmi fəaliyyətlə məşğul olan həmyerlilərimizin təbriklərinin yer aldığı videoçarx nümayiş olunub.

Tədbirin sonunda olimpiada qaliblərinə mükafatlar təqdim edlib.

Respublika fənn olimpiadaları Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, fizika, kimya, biologiya, informatika, coğrafiya və tarix olmaqla, 8 fənn üzrə IX, X və XI sinif şagirdlərin iştirakı ilə keçirilib. Bu mötəbər yarışda xüsusi istedadı və hazırlığı ilə seçilən 7-8-ci sinif şagirdlərindən də IX siniflərlə bərabər öz bilik və bacarığını nümayiş etdirən şagirdlər olub.

❑ Əli RAİS,
Fotolar: Elçin ƏKBƏROV

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018

**28 may-Respublika Günündə ölkə müxalifətinin daxilində ənənəvi halın yenidən baş verəcəyi indidən görünür. Belə ki, Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı abidəsini siyasi partiyalar pərakəndə şəkildə ziyarət edəcəklər. Bu, sosial şəbəkələrdə yaradılan eventlərdə və təbliğatlarda özünü büruzə verməkdədir.**



# Müxalifətin 28 May ziyarəti-yenə də pərakəndəlik olacaq, yoxsa...





**Pənah Hüseyn:** "Hər il keçirilən tədbirlər bu il də keçiriləcək"
**Əli Orucov:** "Rəsulzadənin ziyarətinin müxalifətlə birlikdə edilməsi nəzərdə tutulmayıb"

Azərbaycan tarixində belə önəmli tarixi gün bir də bir əsr sonra yaşanacaq. Müxalifətin bunun fərqində olmadığı və heç olmasa bir dəfə vahid şəkildə ziyarət təşkil etmək fikrində olmadıqları göz önündədir. Maraqlıdır ki, ölkənin əsas müxalif qurumları sayılan Müsavat və Milli Şura arasında hazırda elə də inciklik yoxdur. Əksinə, bir yaxınlıq hiss olunur. Hətta mart-aprel aylarında hər iki düşərgə birlikdə mitinqlər təşkil etdi. Lakin bu qurumlar da ayrı-ayrılıqda Rəsulzadənin abidəsini ziyarət edəcəklər.

Siyasi partiyalardan ziyarəti necə təşkil edəcəkləri və müxalifətin nə üçün birlikdə bu ziyarəti təşkil etməmələri barədə mövqelər aldıq.

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, Cümhuriyyətlə bağlı fərqli tədbirlərin keçiriləcəyi barədə məlumatsızdır:** "Mətbuatda Müsavat Partiyasının tədbirləri, eləcə də 28 mayda "Məhsul" stadionunda açıq havada təntənəli yubiley keçirmək barədə partiyaların müraciətləri haqqında məlumatlar gedir. Başqa tədbirlər olmasa, hər il keçirilən tədbirlər bu il də keçiriləcək. Bu bayramı hər zaman ümummilli bayram kimi qeyd edirik. Bu yubileyi ərazi bütövlüyümüzün tam bərqərar olması şəraitində qeyd etməyi çox istərdik. Ayrı-ayrı qüvvələrin, dövlətin bu hədəflərə çatmadığı bir faktdır. Bilirsiniz ki, bu il eyni zamanda Əbülfəz Elçibəyin anadan olmasının 80 illik yubileyidir. Bu yubileyin yüksək səviyyədə qeyd olunması istiqamətində hazırda işlər gedir. Bu məsələlərin hər ikisi bir-biri ilə iç-içədir. Qalan müddət ərzində tədbirlərimiz davam edəcək".

**AĞ Partiya başqanı Tural Abbaslı Cümhuriyyətin yubileyi ilə bağlı müxalifətin birliyinin vacibliyindən danışdı:** "Biz AĞ Partiya olaraq hələ ki 28 may günündə Novxanıya Rəsulzadənin heykəli önünə getmək məsələsini müzakirə etməmişik. Hər zaman müxalifətin funksional əməkdaşlığının və kardinali fəaliyyətinin tərəfdarı olmuşuq. Hətta bir neçə dəfə də Novxanıya digər müxalifət partiyaları ilə birgə ziyarətə getmişik. Bu il isə hələlik bizə hansısa partiya tərəfindən birgə iştirakla bağlı konkret təklif gəlməyib. Əgər yaxın günlərdə belə bir təklif olarsab təbii ki, bunu müzakirə edə bilərik. Ancaq 28 may günü daha başqa tədbirlər keçirmək və cümhuriyyətin 100 illik yubileyini fərqli aksiyalarla qeyd etmək də olar. Partiya olaraq bunun da üzərində işləyirik. Təbii ki, Azərbaycan Cümhuriyyətinin 100 illiyi kimi ümummilli bayramları siyasi mövqeyindən asılı olmayaraq iqtidarlı-müxalifətli bütün partiya və təşkilatlar birgə qeyd etsələr daha yaxşı olar. Bütün dünyada normal, sivil dövlətlərdə bu zatən belə olur. Həmçinin belə birgə təşkil olunan tədbirlər siyasi dialoq mühitini formalaşdırır, cəmiyyət arasındakı neqativ gərginliyi aradan qaldırır və ən əsası cəmiyyətdə milli barışıq mühitini formalaşdırır. Sadaladığım nüanslar isə dövlətçilik ənənələrinin formalaşmasına və möhkəmlənməsinə vasitəçilik edir. Nəticədə keçmişə barışıq və gələcəyinə ümidli güclü bir dövlət meydana çıxır. Müxalifətdə tək bu məsələdə deyil, təəssüflər olsun ki. bir çox ümummilli digər məsələlərdə də birlik müşahidə olunmur. Bu neqativ ənənə uzun illərdir davam edir. Düşünürəm ki, bunun da səbəbi özünü müxalifət liderlərindən zənn edən bəzilərinin cılız şəxsi ambisiyalarıdır. Onlar bu şəxsi ambisiyalarını hətta rəhbərlik etdikləri təşkilatların siyasi kursuna da daxil etməyi bacarıb. Bir çoxları 1992-ci ildə hakimiyyətdə olduqları zaman kimlərləsə yaşadıqları intriqa və qarşıdurmaları bu günlərə qədər davam etdirirlər. Təbiidir ki, bunun da altını Azərbaycan xalqı çəkir. Biz AĞ Partiya olaraq bu neqativ ənənəni davam etdirmək niyyətində deyilik. Bundan irəli gələrək də siyasi spektrin bütün tərəfləri ilə normal siyasi münasibətlər qurmağa çalışırıq".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bunları dedi:** "Bizim hələ iştirak formasız barədə yekun qərarımız yoxdur. Əlbəttə ki, həmin gün heç olmasa Rəsulzadəni öndər bilənlər bir yerdə olsalar çox yaxşı olardı. Hələ necə baş tutacağından xəbərsizəm. Amma biz dost bildiklərimizlə bir yerdə qatıla bilərik. Müzakirə olunacaq. Müxalifətin pərakəndəliyi iqtidarın ən uyğun müttəfiqidir. Bu təfriqə yalnız onlara sərf edir. Heç olmasa, Türkiyə siyasi qüvvələrindən, lap elə müxalifətindən ibrət götürmək olmazmı? Hərə öz marağını qorumaqla prezident və parlament seçkilərinə birgə qatılmaq formulunu tapdılar. Bu belə mürəkkəb tənlik deyil ki, məchulu tapılmasın. Bunu tapa bilməyənlər siyasi riyaziyyatdan keçə bilməyəcəklər və uğur olmayacaq. Bu mənim fikrimdir".

AMİP katibi Əli Orucov müxalifətin birliyinin nəzərdə tutulmadığını söylədi: "AXC-nin 100 illik yubileyi ilə bağlı AMİP-də işçi qrupu yaranıb və tədbirlər plani Siyasi Şurada təsdiqlənib. Həmin plana uyğun olaraq da bir sıra silsilə tədbirlər həm yerli təşkilatlarda, həm də mərkəzi qurumlarda keçiriləkdədir. Cümhuriyyətin banisi Rəsulzadənin ziyarətinin müxalifətlə birlikdə edilməsi nəzərdə tutulmayıb".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Əli Həsənov qaçqınları xələfinin üstünə qaldırdı

## Ev, "çörəkpulu", müalicə problemləri həll olunmayan məcburi köçkünlər "Qaçqınkom"un qarşısına toplaşdılar

**Bir qrup məcburi köçkün mayın 15-də Qaçqınlarla və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin qarşısına toplaşıb. Onlar "Qaçqınkom"un qarşısında piket keçirərək, ev tələb ediblər. Köçkünlər illərdir ev problemlərinin həll edilməməsindən narazıdırlar.**



Aksiya iştirakçılarından olan Qarabağ müharibəsi veteranı, 2-ci qrup əlil deyib ki, maşının içində yatır: "Evim-eşiyim yoxdur. 50 manat pensiya verirlər mənə. Mən maşının içində yatıram. Sənaye Pedaqoji Texnikumunun "obşejiteli" var, orada yataqxanada bacım qalır, hərdən gedib onun yanında qalıram. Mənim çörəkpulumu vermirlər. Deyirlər sən buranın vətəndaşı deyilsən. Mən Qubadlı qaçqınıyam. Bədənimdə qəlpələr var. 4 dəfə ürəyimdən əməliyyat olunmuşam Almaniyada. Deyirlər sənə çörəkpulu düşmür. Sən varlısan, evin-eşiyin, maşının var".

Müxtəlif bölgələrdən olan bu insanların bəziləri evsizlikdən, bəziləri "çörəkpulu"nun kəsilməsindən, bəziləri isə müavinətlərin dondurulması məsələlərindən şikayətləniblər. Onların bildirməsinə görə, qəbul ayda bir dəfə, ayın 15-də olduğundan komitə önünə toplaşıblar. "Əvvəlcə növbəliliyi təmin etmək üçün siyahı hazırladılar, sonra həmin siyahını bir yana atdılar ki, qaçqın kartları ilə gəlin. Ona görə də burada qarışıqlıq düşdü", - köçkünlərdən biri deyib.

**Köçkünlər eyni zamanda bildiriblər ki, komitə əvvəlki rəhbərlik dönəmində onlara laqeyd münasibət göstərib və problemlərinə başdansovdu yanaşıb:** "Verilən cavablar eyni məzmunda və başdansovdudur. Bax, əlimdə 10-a yaxın məktub var, hamısı da qısa və eyni cümlələrdən ibarətdir. Nə olsun, cavab verirlər, problem həllini tapmır. Bizim məqsədimiz məktub yazmaq deyil axı, məktubda qaldırılan problemin həllinə nail olmaqdır", - başqa bir köçkün deyir.

Onlardan biri də vurğulayır ki, 4 uşaqla yataqxanada 12 kvadratmetrlik otaqda yaşayır. Onun deməsinə görə, neçə illərdir bu barədə müraciətlər etsə də, problemi həll edilmir.

Köçkünlərin deməsinə görə, onlara 22 manat «çörəkpulu» nəzərdə tutulur. Üstəlik, kommunal xidmətlərə görə 36 manat ayrılıb. Bu il bu məbləğ 10 faiz artıb, 40 manata yaxınlaşıb.

Komitənin mətbuat xidmətinin rəhbəri İbrahim Mirzəyev AzadlıqRadiosuna deyib ki, köçkünlərin qarşısına çıxaraq onların şikayətlərini dinləyib. İ.Mirzəyev vurğulayıb ki, heç zaman komitə köçkünlərə laqeyd yanaşmayıb, sadəcə, hamını qəbul etməyə vaxt çatmır. Mətbuat xidmətinin rəhbəri əlavə edib ki, bu vəziyyət aradan qaldırılacaq. "Daha qəbul ayda 1 dəfə yox, 4 dəfə olacaq", - mətbuat xidmətinin rəhbəri komitə önünə toplaşanlara bildirib.

Belə iddialar da var ki, köçkünlərin "Qaçqınkom"un qarşısına toplaşması sabiq sədr Əli Həsənovun maraqlarına xidmət edir. O, özünün əhəmiyyətli bir fiqur olmasını diqqətə çatdırmaq üçün belə bir aksiyanın meydana gəlməsini təşkil edib. Bu iddiaların nə dərəcədə doğru olması isə bilinmir. Əli Həsənov vəzifəsindən ötən ayın 21-də kənarlaşdırılıb. Prezident İlham Əliyevin Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında imzaladığı sərəncama əsasən, Rövşən Rzayev Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə yeni sədr təyin olunub. Əli Həsənov Dövlət Komitəsinin sədri vəzifəsindən çıxarılsa da, baş nazirin müavini postunda saxlanılıb.

Qeyd edək ki, Rövşən Rzayev Milli Məclisin deputatı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin idarə heyətinin üzvü olub.

❑ **E.HÜSEYNOV,**
**Musavat.com**

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev Qara dənizlə Xəzər dənizi arasında gəmiçilik kanalının tikilməsi təklifi ilə çıxış edib. Nazarbayev Soçidə Avrasiya İqtisadi İttifaqının iclası zamanı üzv ölkələrə iki dəniz arasında kanalın tikintisinin mümkünlüyünü nəzərdən keçirməyi təklif edib. Qazaxıstan prezidenti bildirib ki, hər iki dənizi birləşdirəcək "Avrasiya" kanalı perspektivli layihələrdən ola bilər.**

# Nazarbayevin fantastik "dənizdən dənizə" təşəbbüsünə ilk reaksiya

## Saleh Məmmədov: "Bu kanal Rusiyanın ərazisindən keçmədən reallaşsa, təbii ki, ölkəmiz üçün çox böyük əhəmiyyət kəsb edər"



**Bu fantastik ideya ilə bağlı Azərbaycanın sabiq maliyyə naziri Saleh Məmmədovla** danışdıq. Zamanında maraqlı və sensasion ideyaların müəllifi olmuş sabiq nazir qazax prezidentin təşəbbüsünün diqqətçəkən olduğunu bildirdi:

- Qara dənizlə Xəzər dənizini birləşdirəcək kanal mövzusu əslində keçən əsrin ortalarından müzakirə olunmağa başlayıb. Bunun nəticəsi olaraq o zaman kanal çəkildi, Volqa-Don kanalı qış mövsümü istisna olmaqla, qalan vaxtlar daim işləyir. İkinci kanalın çəkilməsi nə dərəcədə səmərə verəcək, effektli olacaq, onu başa düşmürəm. Volqa-Don kanalı Qara dənizdən çıxır Azov dənizinə, oradan da Volqa çayına və Volqa çayı vasitəsilə Xəzər dənizinə birləşir. Burda da böyük yükdaşımalar həyata keçirilir. Bu kanal çox məşğul da deyil ki, deyim növbə-filan olur. Bu kanalı genişləndirmək olar. Düzdür, qış mövsümündə donduğu üçün bu kanal işləmir. Müəyyən tədbirlər görmək olar ki, il boyu işləsin və ciddi effekt versin. Təzə kanal isə haradan, necə çəkiləcək, bu, probleme çevriləcək. Çünki Qara dənizlə Xəzər dənizinin arasında Böyük Qafqaz dağ silsilələri var. O qədər məsafəni keçmək çox ağır məsələdir. Zərurət də yoxdur. Bir kanal olduğu halda, ikinci kanalın çəkilməsi nə dərəcədə effekt verəcək? Nazarbayev bəlkə istəyir ki, bu kanal Rusiyanın ərazisindən keçmədən, Gürcüstan və Azərbaycan əraziləri vasitəsilə çəkilsin. Çünki Rusiyanın ərazisindəki nəqliyyat dəhlizləri, yaxud boru kəmərləri həmişə təhlükə qarşısındadır, Kremlin qəbul etdiyi qərarları heç kəs proqnozlaşdıra bilmir, istənilən vaxt yolları kəsə bilər. Bu günün özündə də Volqa-Don kanalı ilə gediş-gəliş asan deyil, Rusiya gah hansısa gəmini buraxmır, gah dövlətlərə ciddi məhdudiyyətlər qoyur, çox böyük problemlər yaradır.

***- Necə bilirsiniz, Nazarbayevin ideyası gerçəkləşsə, bu, Türk dünyasını birləşdirən "su yolu", "su dəhlizi" ola bilməzmi? Türkiyənin marağını cəlb edərsə, bu nəhəng layihə gerçəkləşə bilərmi?***

- Bu, başqa məsələ. Onu Gürcüstan və Azərbaycan üzərindən gətirib Xəzərə çıxartmaq olar. Ən qısa məsafə və ən doğru yoldur. Qara dənizin başqa istiqamətini götürsən, Xəzərə çatmaq üçün ən azı min km-dən artıq məsafə olacaq. Ancaq Gürcüstan üzərindən Azərbaycana keçən yol olsa, bu, haradasa 900 km olar. Düzdür, dağlardan keçdiyi üçün onu həyata keçirmək çox mürəkkəb məsələdir. Qafqaz dağlarından keçən kanalı gətirib bura çıxartmaq çox çətindir.

***- Son zamanlar Kremlin Qazaxıstanla bağlı hansısa sürprizlər edə biləcəyi barədə xəbərlər yayılır. Bəlkə Nazarbayev Kremli neytrallaşdırmaq üçün bu kimi təkliflərlə ortamı yumşaltmaq istəyir, ola bilərmi?***

- Nazarbayev çox ağıllı adamdır, uzaqgörən siyasətçidir. Qazaxıstana Rusiya tərəfdən ciddi təhlükələr var idi. Ölkə əhalisinin cəmi 38 faizi qazaxlardan ibarət idi və hər an Qazaxıstanın başına Azərbaycan, Gürcüstan, Moldova, Ukraynanın başına gətirilənləri gətirə bilərdilər. Bu gün artıq gecdir. Qazaxıstan çox ağılla, düşüncə ilə hərəkət edərək, öz siyasətini yeridərək, bir dənə güllə atmadan, bir şəhid vermədən öz dövlətini çox yüksək səviyyədə möhkəmlətdi. Bu gün Qazaxıstan islahatlara, iqtisadi inkişafına və siyasi proseslərə görə türk dünyasında birinci yerdədir.

***- Deməli, ağıllı, təcrübəli prezident olan Nazarbayev boşuna kanal təklifini irəli sürməyib, razılaşırsınızmı?***

- Ola bilər manevr, yaxud xəbərdarlıq olsun. Amma bu gün Rusiyadan gələn təhlükə Qazaxıstan üçün heç bir əhəmiyyət kəsb eləmir. Dünya miqyasında da böyük mövqeyə malikdir. Nazarbayev bir dəfə demişdi ki, 200 dövlətin içində Qazaxıstanın bir düşməni yoxdur, hamısı dost ölkələrdir. Yeganə dövlətdir ki, faydalılıq əmsalını yüksəldərək, dağıdıcı təsirə malik bir dövlətin gücünü tam əksinə, faydalı enerjiyə keçirib, millətin mənafeyi üçün ciddi şəkildə istifadə edə bildi.

***- Bu fantastik ideya gerçəkləşsə, Azərbaycana nə kimi faydaları ola bilər?***

- Rusiya ərazisindən keçsə, zənn etmirəm ki, Azərbaycan, yaxud Qazaxıstan üçün faydası ola bilər. Amma bu kanal Rusiyanın ərazisindən keçmədən reallaşsa, təbii ki, ölkəmiz üçün çox böyük əhəmiyyət kəsb edər. Həm alternativ yolların çəkilişi, həm Azərbaycanın Gürcüstan vasitəsilə okeana çıxışının əldə olunması baxımından faydalıdır. Üstəlik, Qazaxıstan və digər türk dövlətlərinin okeana çıxışına imkan yarada bilər.

***- Bəs kanalın çəkilişi Xəzər dənizinin səviyyəsi ilə bağlı ortaya problem çıxara bilərmi?***

- Bu kanalları xüsusi texniki mexanizmlərlə tənzimləmək olur. Xəzərin səviyyəsi okean səviyyəsindən aşağıdır. Suyu necə var, elə buraxsan, çox əraziləri basa bilər. Ona görə də tənzimlənir. Bir vaxtlar mən kitab yazmışdım, "Azərbaycanın 50 illik sosial-iqtisadi inkişaf proqramı" adlı. Orada məndən də qabaq qaldırılan bir ideyadan bəhs etmişdim: Xəzər dənizini kanal vasitəsilə Fars körfəzi ilə birləşdirmək. Bu gün də o, müzakirə obyektidir, hər dəfə qaldırılır. Təbii, müsəlman ölkələri olduğu üçün məsələnin üstünə gedən yoxdur. Çin, Amerika, ya Avropa dövlətlərindən biri olsaydı, bunun üstünə gedib, tez bir zamanda həyata keçirə, bunu həll edə bilərdilər. Nəticədə bu, region dövlətləri üçün çox böyük əhəmiyyətə malik layihə olardı.

***- İndiki durumda qazax prezidentin təşəbbüsü daha real görünür, yoxsa sizin müdafiə etdiyiniz Fars körfəzi ideyası?***

- Hər ikisi çox vacibdir. Yenə deyirəm, əgər Rusiyanın ərazisindən keçməsə... Okeana birləşdirməklə görün nə qədər yol qısaldılır. Xəzərdən dünya əhalisinin yarısının yaşadığı Çinə, Hindistana mal çıxartmaq üçün Qara dənizə çıxmalısan. Qara dənizdən təzədən gəmiyə yükləməlisən, Türkiyəni keçməlisən, Süveyş kanalı və s. vasitəsilə Avropanı fırlanıb gəlirsən. Amma birbaşa gəmi ilə daşınma həyata keçirilsə, daşınma müddəti və xərclər ən azı üç dəfə azalacaq.

***- Bu layihə gerçəkləşsə, dəmir yolu, ipək yolu layihələrindən sonra su xəttinin keçməsi ilə Azərbaycanın regionda önəmini daha da artırmayacaqmı?***

- Əlbəttə, çox artacaq. O zaman biz təklif etmişdik ki, Azərbaycan təşəbbüskar kimi çıxış etsin. Həmin dövrdə neftdən milyardlarla dollar gəldi-getdi, hamısı dağıldı. O pullar bu layihəyə qoyula bilərdi. İlk vaxtlar ABŞ, Avropa, birliklər bu layihənin maliyyələşdirilməsinə gedəcəkdi. Amma təəssüflər olsun ki, heç bu haqda düşünən də olmadı.

***- Nə qədər vəsait tələb olunurdu?***

- O vaxt hesablamışdım, çox deyildi, haradasa 10-12 milyard vəsait lazım idi. Amma effektini verirdi, bir ildə məsrəfi çıxarırdı. Söhbət Xəzərin Fars körfəzinə birləşdirilməsindən gedir. Amma orada kiçik gəmilər hərəkət etməli idi, 3-5 min tonluq gəmilər. Volqa-Don kanalında da maksimum 4-5 min tonluq gəmilər üzür. Görün nə qədər vaxta və məsrəflərə qənaət deməkdir. Xəzərdən Körfəzə təqribən 1500-1700 km yol olar. Amma həmin məsafəyə yetişmək üçün bütün Avropanı hərləyib gəlməlisən, bu da 6-7 min km deməkdir. Deməli, yolu 3-4 dəfə qısaldırsan.

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Bakıda hərbi parad hazırlığı

## Azərbaycan ordusunun yaradılmasının 100 illiyi ilə bağlı iyunun 26-da Azadlıq meydanında hərbi parad keçirilməsi planlaşdırılır

**Aprelin 27-29-u tarixlərində Bakı üçüncü dəfə "Formula-1" Azərbaycan Qran-Prisinə ev sahibliyi etdi. Yarış ərəfəsində Bakının mərkəzi küçələrində trek boyu beton sədlər, qoruyucu torlar çəkildi. Eyni zamanda Bakı bulvarında da həm yerli, həm də xarici izləyicilərin istirahətləri üçün əyləncəli proqramlar təşkil olunub, qurğular quraşdırıldı. Yarışdan sonra paytaxt ərazisində beton sədlərin söküntüsü bir neçə gün ləngisə də artıq bu istiqamət üzrə işlərə başlanılıb. Ötən illərdən fərqli olaraq, "Neftçilər" prospektində beton sədlər tamamilə götürülür. Bu halı sosial şəbəkələrdə insanlar belə xarakterizə edirlər ki, növbəti il Bakıda "Formula 1" yarışları keçirilməyəcək.**



"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, beton sədlərin götürülməsi bu il keçiriləcək hərbi paradla bağlıdır. Belə ki, Azərbaycan ordusunun yaradılmasının 100 illiyi ilə bağlı iyunun 26-da Azadlıq meydanında hərbi parad keçirilməsi planlaşdırılır. Bu barədə Müdafiə Sənayesi Nazirliyi məlumat yayıb. Məlumatda qeyd olunur ki, ötən ilin analoji dövrü ilə müqayisədə ixrac olunan məhsulun həcmi iki dəfə artıb. MSN müəssisələrində müdafiə təyinatlı məhsulların çeşidləri 1200 növə çatdırılıb.

"Müdafiə Sənayesi Nazirliyinin yeni texnikaları iyunun 26-da Bakıda keçiriləcək Azərbaycan ordusunun yaradılmasının 100 illik yubileyinə həsr olunmuş hərbi paradda da nümayiş olunacaq".

"Formula 1"lə bağlı qurğuların böyük əksəriyyəti məhz bu ərazidə qurulmuşdu. Ona görə də beton sədlər və digər qurğular tamamilə söküləcək.

Bakı Şəhər Halqasının (BŞH) Marketinq və Kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai şayiələrlə bağlı bildirib ki, BŞH-nin "Formula-1" rəhbərliyi ilə 2020-ci ilədək müqaviləsi var. Hazırda bu sözləşmənin daha 5 il müddətinə uzadılması istiqamətində danışıqlar gedir: "Mövcud müqaviləni nə biz pozmaq istəyirik, nə də "Formula-1"in yeni sahibi "Lyberty Media". Əksinə, bu qurumun icraçı direktoru Çeyz Keri fevralda Bakıya gələrək, "Formula-1"lə anlaşmamızı davam etdirmək istiqamətində müzakirələr aparıb".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

Yeni Müsavat
N 106 (6995) 16 may 2018

# İsgəndər Həmidovdan eks-prezidentə çox sərt sözlər

## "Ayaz Mütəllibovun dedikləri cılızlıqdır"

**Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibovun "Yeni Müsavat"ın ötən sayında gedən müsahibəsi geniş müzakirələr doğurub. 26 il öncənin 15 may hadisələrindən danışan sabiq prezident onu devirib hakimiyyətə gələn AXC iqtidarı və ona rəhbərlik edən Əbülfəz Elçibəy barədə qalmaqallara səbəb olan açıqlamalar verib.**



A.Mütəllibov bildirib ki, Cümhuriyyətin yüz illiyi və Ə.Elçibəyin anadan olmasının 80 illik yubileylərinə dəvət olunsa belə iştirak etməyəcək. Sabiq ölkə rəhbəri bu tədbirlərin ona aidiyyəti olmadığını söyləyib.

**Sitat:** "Məni bu adamlar vaxtilə deviriblər. İndi mən də gəlib əyləşməliyəm, bunların sifətlərinə baxmalıyam?"

Eks-prezident heç vaxt Elçibəyin məzarını ziyarət etmədiyini bildirərək, məzarın, sadəcə, yanından keçdiyini qeyd edib. Sabiq ölkə rəhbəri onun devrilməsinin Azərbaycana böyük zərbələr vurduğunu söyləyib. Ard-arda Elçibəylə bağlı suallardan təngə gələn A.Mütəllibov bildirib ki, məgər işimiz-gücümüz yoxdur ki, Elçibəydən danışırıq?

**Elçibəy hökumətində daxili işlər naziri postunu tutan Azərbaycan Milli Demokrat Partiyasının sədri İsgəndər Həmidov A.Mütəllibovun fikirlərinə bu cür reaksiya sərgilədi:** "Xocalı soyqırımı baş verən vaxt rəsmi açıqlamalarda iki nəfərin öldürüldüyü deyilirdi. O zaman Ayaz Mütəllibovun ilk dəfə istefası qoyuldu. O gecə ərizə yazdı ki, sağlamlığı ilə əlaqədar olaraq istefa verirəm. Ona qarşı heç bir güc tətbiq edilməyib. Onun ortalıqda ərizəsi var. Özü də ərizəsini Şeyxə vermişdi. Deyəsən, Ayaz müəllim yaşlanıb, amma unutmasın ki, dediklərim dünənin hadisələridir və hər kəsin yaddaşındadır. Orada Etibar Məmmədov, İsa Qəmbər və mənim də çıxışım var. Konstitusiya ilə prezident ölkənin qarantıdır. Əgər vətəndaşının ərazisini qoruya bilmirsə, istefa verməlidir. Bir dəfə sizin qəzetə açıqlama vermişdim ki, Ayaz Mütəllibov prezidentliyə pillə-pillə yüksəldi, amma daxilən yüksələ bilmədi. Bu adam hələ də başa düşmür ki, Cümhuriyyətin yüz illiyi hamımızın, 39 milyonun bayramıdır. Bu yubileyə qatılmaq ucalıqdır. Ayaz Mütəllibov o bayramı ucaltmır, o bayram onu, məni və digərlərini ucaldır. 100 il öncə nəhəng insanlar böyük məsələləri həll etməyi bacarıblar. Ayaz Mütəllibovun daxili ona yüksəlməyə imkan vermir. Ayaz müəllim də, Əbülfəz Elçibəy də prezident olublar. Əbülfəz bəyin 80 illiyi ona görə yüksək səviyyədə keçiriləcək ki, o, milli azadlıq hərəkatının rəhbəri olub. XX əsrin əvvəllərində bir kişi silahdaşları ilə Cümhuriyyəti qurub, əsrin sonlarında da bir kişi silahdaşları ilə həmin Cümhuriyyəti bərpa edib. Ona görə onun 80 illiyi ən böyük bayramlardan biridir. Əbülfəz bəyin məhkəmə sənədlərinə baxanda görürük ki, o, hələ 70-ci illərdə SSRİ-də demokratiyanın olmadığını deyib. Cümhuriyyətin yüz illiyi və Əbülfəz bəyin 80 illiyi ümumxalq bayramıdır. Buna qatılmağa hamının haqqı var və hər kəs qatılmalıdır".

**Bozqurdların lideri 1992-ci ilin bu günlərində baş verən hadisələrdən də söz açdı:** "15 may hadisələrinə gəlincə, bəzi fikirlər var ki, guya Əbülfəz bəy 14-15 may hadisələri vaxtı orada olmayıb. Amma hər kəs bilsin ki, 12 maydan başlayaraq, Əbülfəz bəy və bizlər "26-lar" bağı deyilən yerin yaxınlığındakı qərargahda yatmışıq. O vaxtı görürdük ki, Ayazı hakimiyyətə gətirmək istəyirlər. Həmin vaxt konstitusiya ilə istefa prosedurası var idi, amma geri qayıtmaq prosedurası yox idi. O zaman keçirdiyimiz iclasda qərara aldıq ki, konstitusiyanın pozulmasına izn verməməliyik. Xalqın böyük dəstəyi ilə konstitusiyanı bərpa etdik. Biz heç kəsi devirməmişik. Əksinə, dövlət çevrilişini Ayaz Mütəllibov etmək istəyib, biz onun qarşısını almışıq. Demokratik seçkilər yolu ilə Əbülfəz bəy prezident seçilib. Ayaz Mütəllibov kimi sex rəisindən bundan artıq heç nə gözləmək olmaz. O, sex rəisi də olaraq qaldı, yüksəlməyi bacarmadı. Qədim yunanların çox yaxşı bir sözü var, deyirlər ki, ölən haqqında ya yaxşı danışırlar, ya da heç vaxt danışmırlar. Əbülfəz bəyin məzarının yanından Ayaz keçə bilər, amma unutmasın ki, bu gün Elçibəy Azərbaycan gənclərinin, yaşlı nəslin simvolu olaraq qalır, daim məzarı ziyarət olunur. Oradan bizə sanki müsbət bir aura gəlir. Əbülfəz bəy heç vaxt ona və ailəsinə kin münasibət bəsləməyib. Əksinə, deyib ki, onlar da bizim millətdəndir. Əbülfəz bəyin hələ qiyməti veriləcək. Milyonlarla insan milli azadlıq hərəkatında onun arxasınca gedib. Onu necə sevməmək, məzarını ziyarət etməmək olar? Ayaz Mütəllibovun dedikləri, sadəcə, cılızlıqdır. 11 ay hakimiyyətdə olan bizlər test üsulunu yaratdıq, rus qoşunlarını Azərbaycandan çıxardıq, bir sıra ərazilərimizi işğaldan azad etdik, Türkiyəyə təhsil almağa insanlar göndərildi. 11 aya bunları etmək o qədər asan deyildi. Onun ya dünyagörüşü yoxdur, ya da yaşlandığı üçün nə danışdığını bilmir. Onun ailəsində vəfat edən olanda o zaman türmədə idim, Elçibəyin bütün silahdaşları o yasa getmişdilər. Bu bizim hakimiyyətin siması, dedikləri isə onun öz simasıdır. Rəhmətə getmiş bir liderin ailəsi ilə görüşməyi bu şəxs iş-güc saymır. Görün bu şəxsdə nə qədər cılızlıq var. Xəbisliyi imkan vermir ki, başını qaldırıb ətrafa baxsın".

**Sabiq nazir A.Mütəllibovun 26 il öncənin mart və may aylarında yaşanan hadisələrə münasibət bildirməkdən yayınmasına da mövqe bildirdi:** "O hadisələr heç vaxt unudulmayacaq. Həmin hadisələrin üzərinə tez-tez qayıdılacaq. Bu hadisələri qapatmaq istəyən birisi mərhum prezidentdən, milli azadlıq hərəkatının liderindən danışmaz. Çünki Əbülfəz bəyin fonunda Ayaz Mütəllibov çox cılızdır. Elçibəyin bir illik hakimiyyəti dövründə onun beş illik hakimiyyət dövrü heç oldu. Bu mövzular heç vaxt qapanmayacaq, əksinə, açıq qalacaq. Çünki ortalığa o qədər insanlar çıxacaq, özlərini "qəhrəman" kimi sırımağa çalışacaqlar. Elçibəy axı tamam başqa bir insan idi. Niyə belə edirsiniz? Onun milləti, xalqı sevməyinə axı sizlərdə də şübhə yoxdur?"

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Hadisənin çimərliyi, Pətəyin torpağı, Rəqsanənin kəlamı



**Samir SARI**

**Zəng edib deyir, "bə yazırdınız, Hadisə bizim iş adamına tutduq verməyib, indi bu nədir, təzədən yazırsınız ki, Bodrumda ona hotel-plyaj alıbmış, indi də söküb böyrü üstə qoyublar, nə məsələdir..."**

Deyirəm, prinsipcə, ola bilər də, kimsə kiməsə bir yaxşılıq edirsə, o demək deyil ki, onların arasında mütləq eşq-məhəbbət söhbəti var.

Deyir, eloğlu, heç bir biznesmen quru xətir-hörmətə, sənətə rəğbətə görə heç kəsə hotel bağışlamaz, söhbət milyondan gedir ey...

Deyirəm, a kişi, nə işimizə qalıb, istəyər, hotel bağışlayar, istəyər 20 min dollarlıq çanta hədiyyə edər, lap belə xətri çəkər, "Lamborgini" verər, pul onların, can onların, niyə dərd edək...

Deyir, yox ey, bunu elə qələmə verirdiniz ki, sanki ölkəni dağıdır, yeyir, onu da elə təqdim edirdiniz, guya mələkdir, heç bir pulla onu ələ gətirmək olmaz, amma bax, iki bajı bir hoteli götürüb işlədirmiş...

İndi gəl bunu, bu şəkkak, sözdən söz çıxaran, inamsız adamı başa sal ki, insanlar arasında belə haqq-hesablar olursa, bu o demək deyil ki... Nəysə. Onsuz da heç kəs inanmayacaq. "Hər adam öz qəlbindəki şeylərlə düşünür"-zad məsələsi

Odur, Şəkinin bələdiyyə başçısı da türkiyəli müğənni Pətək Dinçözə torpaq sahəsi bağışlayıb ki, xatun özünə ev tikdirsin, yurd salsın, yay aylarında gəlib dincəlsin, paxlava, piti yesin. Nə edəydi, arı pətəyi bağışlayası deyildi ki. Qardaş ölkədən gəlib.

Amma onu da yozanlar var, deyirlər, xeyir ola, xanım gəlib iki mahnı oxuyub deyə, bu nə səxavətdir, comərdlikdir və sairədir. Demək, ortada bir şey var - deyirlər.

Hamının ağlı Rəqsanənin dediyi sözlərə gedir. O zalım qızı da dilini dinc qoymur, 5-6 il əvvəl demişdi ki, sponsorlar qadın müğənnilərə elə-belə sponsorluq etmirlər, bu dəfə də deyib ki, hərəsini bir kişi saxlayır.

Əlbəttə, ümumi danışmaq olmaz. Eləsi də var, beləsi də. Əsas məsələ sənətdir, müğənnilərin şəxsi həyatları, həyətyanı sahələrinin necə olması gərək bizi ilgiləndirməsin. Sən onun oxumağına bax, nə işinə qalıb, nə yeyir, nə içir, nə sürür, nə geyir, harda butik açır, dincəlməyə hara gedir, kimlərlə otel işlədir və s.

Düzü, mən Hadisənin Bodrumdakı oteli haqda maqazin verilişlərində bir neçə dəfə süjetlər görmüşdüm, amma güman etməzdim ki, onun (otelin) arxasından azərbaycanlı iş adamı çıxacaq. Türkiyənin ünlü sənətçiləri gəlib dənizdə çimişir, istirahət edirdilər, arada Hadisə də gəlib oxuyurdu, necə deyərlər, oteli şənlikli edirdi.

İndi çimərliyi dağıdıblar, ağzı günə qalıb. Düzdür, iki bacının bir hoteli götürüb işlətməsi o qədər də sensasion xəbər deyildi, amma o hotelin sökülməsi sıradan bir xəbər deyil.

Gərək Bodrum bələdiyyəsi belə iş görməyəydi. Sənətə, sənətçiyə hörmət budurmu? Bizdə olsa, bələdiyyə sədri hansısa müğənninin çimərliyini demirəm, adicə gözəllik salonunu sökdürə bilər? Rəqsanənin sözü olmasın, adamın şalvarını çıxardarlar - sözün birbaşa mənasında.

Heç yuxarılardan zəng gəlməsə də, təzyiq-filan olmasa da bizdə sənətkara hörmət var. Yoxsa içkili-içkili maşın sürən xanım müğənnilərin maşınları cərimə meydançasına aparılar, sürücülük vəsiqələri əllərindən alınardır.

Məsələnin bu tərəfi heç, uzun söhbətdir.

Ancaq nə işdirsə, bizimkilərin Türkiyə dənizlərinin sahillərində hotel-tətil biznesi heç cür alınmır, "Mardan-palas" elə oldu, Hadisəyə alıb verdiyimiz hotel də belə. Hələ kim bilir, Türkiyədə neçə adamın daşınmaz mülkünə təhlükə var.



# Formalizmin bəlaları

**Zamin HACI**
zaminhaci@gmail.com

"Tərbiyəli adam heç vaxt "Rədd ol buradan" deməz. O, belə deməlidir: "Məncə, siz uzaq gedəcəksiniz"
***(müdriklərdən biri)***

**Rəhmətlik Vəfa Quluzadə uzun illər "Rusiya dağılacaq" deyərdi, Rusiya isə nəinki dağıldı, əksinə, ətrafındakı torpaqları tuta-tuta getməkdədir. Dünən bunlardan birinə - Krıma körpünün açılışını elədilər, Putin müəllim "KamAZ"da fəhlələri şəxsən daşıdı. Lap o məşhur anekdotdakı vəziyyət idi. Deyir bir gün Putin aeroportdan evə qayıdanda sürücüdən sükanı alır, başlayır maşını qovmağa. Yolda polis postunda rəis serjantı göndərir ki, get bunu saxla, pul al. Serjant gözü kəlləsinə çıxmış qayıdır, rəis deyir niyə əliboş qayıtdın, maşındakı kim idi. Serjant deyir: "Rəis, bilmirəm kim idi, ancaq şoferi Putin idi".**

Ümumiyyətlə, hər bir özünə hörmət edən dövlətin "Cocuq Mərcanlı"sı olmalıdır, Krım da Rusiyanın belə yerlərindən biridir. O birilər də Luqanskdır, Donetskdir, Dnestryanıdır, Abxaziyadır, nə bilim, Qarabağdır... Ölkə yekə olduğu üçün *(təsəvvür eləmək də olmur - 17 milyon kvadrat kilometrdən çox ərazisi var; biz burda ora-burası qoparılmış 86 min kvadrat kilometrin içində özümüzü girləyə bilmirik)* onun "cocuqmərcanlıları" da çoxdur. O cümlədən ABŞ-ın Yaxın Şərqdə İsrail kimi "cocuqmərcanlısı" vardır. Hərçənd bəzən İsrail özü ABŞ-ı "Cocuq Mərcanlı" kimi işlədir.

Axırda hamı torpağa çevrilir, qlobal miqyasda yanaşanda insanların bu torpaq münaqişələri olduqca gülünc, biabırçı görünür. Ara yerdə uca millətimiz Şəkinin icra başçısının türkiyəli müğənni Pətək xanıma rayonda torpaq bağışlamasını hoydu-hoyduya qoydu, yazıq icrabaşı məcbur oldu bunu təkzib eləsin. Halbuki bizim keçmiş nazir Ziya müəllimin oğlu Anar bəy Türkiyədə başqa manısa plyaj bağışlamışdı, təzəlikcə bələdiyyə oranı sökdü. Necə olur, orda bağışlayanda yaxşıdır, burda pis? Bəs "bir millət-iki dövlət-üç müğənni-dörd icra başçısı-25 sot torpaq" şüarını nə edək? Şəkidə plyaj yoxdu axı! Üstəlik, rayonlarda bütün torpaqları cürbəcür məmurlar basdalayıb almaqdadır, indi burdan bir-iki qarış yer Pətək xanıma verilsə, orda arı saxlasa, pətəyinə bal yığsa, sonra da "Arım, balım, pətəyim" oxusa Azərbaycan həqiqətlərini dünyaya yaymaqda uğur qazanmazdıqmı? Biz həmişə beləyik. ABŞ səfiri Eskuderoya da Nardaranda torpaq almağı çox gördük, başını aldı getdi.

Əlbəttə, başa düşürəm, torpaqdan pay olmaz, torpaqları torpaq yapan üstündəki qandır, o cümlədən, kasıbların, yetimlərin uşaqları vətən uğrunda qəhrəmancasına həlak olmağa borcludurlar. Ancaq hər halda, diaspor işimizi düzgün qurmaq da vacibdir. Səmimi olmalıyıq.

Bax, İctimai Televiziya hazırda belə səmimiliyin qurbanına çevrilibdir. Orada Cəmil Quliyevi sədrlikdən çıxardıb yerinə Balakişi Qasımovu qoymuşdular *(düzü mən Balaş bəyin "Nə, harada, nə vaxt" verilişində bəzi çıxışlarına baxmışam, yetərincə xoş təsir bağışlayan adamdır, bu baxımdan dəyişikliyi alqışlamaq istədim, qolumdakı qandalları açsaydılar bəlkə alqışlayardım)*. Ancaq sonra kiminsə yadına düşdü ki, ey dadi-bidad, axı bunun adı ictimai kanaldır, formal da olsa guya bunda hər şey seçki yoluyla olmalıdır, yayım şurası-zad toplaşıb namizədlərə səs verməlidir və sairə. Nəticədə yazıq Balaş bəyin sədrliyi ulduzların bəlasına gəldi, qısa müddətə başa çatdı. Hansısa yaramazlar seçkini yada salmasa, heç bu cür olardımı? AzTV sədrini necə qoyurduqsa, bunun da şefini elənçik qoyardıq, bitib gedərdi. Evimizi formalizm yıxacaqdır. Bunu hələ dahi rəhbərimiz Vladimir İliç Lenin baba da tənqid eləmişdi, yazırdı ki, işçilərin öz fəaliyyətlərində formalizmə yol verməsi, hansısa qanun, qərar, sənəd, bürokratik kağız-kuğuz əsasında işləməsi məzələnməyin bir formasıdır. Qanunların hərfinə əməl eləmək çürüməkdə olan kapitalizmə xas əlamətdir. Bizdə partkomun ani qərarları önəmli olmalıdır.

Bu mənada, Ağsudan gələn təkzib ürəyimizə su səpmişdir. Xəbər yayılmışdı ki, orada bir müəllim məktəb direktorunun başına butulka vurubdur. Ancaq indi rayon təhsil şöbəsi deyib yalandır, direktoru vuran müəllim olmayıb, başqa peşə yiyəsidir. Xeyli sevindik. Biz müəllimin direktoru vurmasına pis baxırıq.




# Putinin adamı Paşinyanı əks-inqilabla hədələdi - "Yuşşenko və Saakaşvili də..."

## Soçidəki ikitərəfli görüşdən sonra Kremlin Ermənistanla bağlı əsas hədəfi üzə çıxır; Moskvadan İrəvana sərt xəbərdarlıq: "Eyni vaxtda Qərbin və Rusiyanın dostu olmağa qoymayacağıq..."

**Mayın 14-də Soçidə Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın yeni baş naziri Nikol Paşinyan ilk dəfə bir araya gəldilər. "Yeni Müsavat"ın yazdığı kimi, görüşdə Rusiya lideri ilk dəfə olaraq erməni baş naziri canlı şəkildə görüb "dişinə vurdu", ona tet-a-tet bəzi qiymətli tövsiyə və "öyüd-nəsihət" verdi, "böyük kimi" yol göstərdi, siyasi trayektoriya cızdı.**

Öz növbəsində Nikol Paşinyan nəzakətlə Putini dinləyib ona söz verdi, sədaqət andı içdi. Söz verdi ki, sözəbaxan olacaq, ölkəsini Moskvanın cızdığı dairədən kənara çıxarmayacaq.

Bundan sonra nə olacaq, bu, əlbəttə ki, ələhəzrət zamana bənd məsələdir. Gözləmək lazım gələcək. Amma əksər təhlilçilərə görə, Soçi görüşü hələ heç nə demək deyil, çünki Putin verilən vədlərə rəğmən, Paşinyana inanmır. Ən azından o, postsovet məkanında inqilabçılardan xoşlanmır. O üzdən Kreml şəkk-şübhəsiz, Paşinyanın hərəkətlərini az qala mikroskopla, diqqətlə izləyəcək.

*****

**Bu xüsusda görüş öncəsi tanınmış politoloq Andrey Piontkovskinin aşağıdakı rəyini bir daha xatırlatmağa dəyər. Sitat:** "Paşinyanla Putinin mayın 14-də Soçidəki ilk görüşü Saakaşvili ilə Putinin ilk görüşü kimi çox nəzakətli keçəcək. Putin o zaman müəyyən konkret arzularını dilə gətirmişdi. O, Gürcüstan rəhbərliyində qəti şəkildə toxunulmayacaq 5-6 nəfərin adını çəkmişdi. Yəqin ki, bu dəfə o, Paşinyana da öz agenturasındakı belə fiqurların adını çəkəcək".

Bu ehtimalın da doğruluğunu yəqin ki, zaman göstərəcək. Daha bir səbəbdən: gizli qərbçi sayılan Paşinyan hazırda öz komandasını daha çox Qərbə meylli adamlardan formalaşdırmaqla məşğuldur. Yeni xarici işlər naziri Zoqrab Mnasakyan, müdafiə naziri - Ermənistanın NATO yanında keçmiş təmsilçisi olmuş David Tonoyan bu qəbildəndir. Bundan əlavə, Paşinyan tanınmış amerikalı iqtisadçısı Daron Acemoğlunu islahatlarla bağlı məsləhətlər vermək üçün Ermənistana dəvət edib.

*****

Başqa bir nüfuzlu rusiyalı politoloq, Putinin etibarlı şəxsi, Sergey Markov isə Soçi görüşündən sonra İrəvan-Moskva əlaqələrində mümkün dəyişiklikləri şərh edərək maraqlı, bir az da sarkazm qatılmış status yazıb. "Yeni Müsavat" aktuallığını nəzərə alaraq, onu təqdim edir:

"Hamı üçün maraqlıdır ki, Paşinyan əsl inqilabçıdır, yoxsa özünü inqilabçılığa vuran sistemli siyasətçi? Deyildiyi kimi, o qərbyönlüdür, yoxsa əksər Ermənistan əhalisi kimi tamamilə rusiyayönlü? Hər halda, o, birinci səfərini məhz Rusiyaya etdi. Ancaq Viktor Yuşşenko *(Ukraynanın sabiq prezidenti, "narıncı inqilab"ın lideri - red.)* və Mixail Saakaşvilinin *(Gürcüstanın eks-prezidenti, "qızılgül inqilabı"nın lideri - red.)* də ilk səfərlərin məhz Rusiyaya etmişdilər. O vaxt Ukraynada da, Gürcüstanda da əhalinin böyük hissəsi rusiyameylli idi. Əslində elə o üzdən də Yuşşenko və Saakaşvil dərhal Rusiyaya uçdular ki, xalqı sakitləşdirsinlər: yəni Moskva ilə münasibətlər pisləşməyəcək.

Ancaq sonra onlar Rusiya ilə əlaqələri sistemli və kardinal şəkildə pisləşdirməyə başladılar və bunu da Qərblə əlaqələrin yaxşılaşması ilə ört-basdır elədilər. Rusiyada bütün bunları xatırlayırlar. Ona görə də sözlərə yox, əmələ baxacaqlar. Həmçinin o anlamda baxacaqlar ki, bu gün eyni vaxtda Qərbin və Rusiyanın dostu olmaq mümkün deyil, imkan verməyəcəklər. Təəssüf ki.

Daha bir faktor - Paşinyan özünün elan elədiyi kimi, tanınmış amerikalı iqtisadçı Daron Acemoğlunu islahatlarla bağlı məsləhətlər vermək üçün Ermənistana dəvət edib. Amerikalını özünün iqtisadi məsləhətçisi eləmək? Bundan az öncə isə Ermənistanın NATO yanında keçmiş təmsilçisi müdafiə naziri təyin olunub. Bunlar həyəcanlı tendensiyalardır. Demək olar, bütün güc strukturlarının rəhbərləri artıq dəyişdirilib. Sərkisyanın Respublika Partiyası isə Nikol Paşinyana baş nazir olmaq imkanı versə də, öz adamlarını hökumətə göndərməmək qərarı verib. Bu, o deməkdir ki, kompromis çox kövrəkdir".

*****

Statusdakı sonuncu cümlə ilə V.Putinin adamı Nikol Paşinyanı əslində əks-inqilabla hədələyib. Bundan az yuxarıda isə Markov "Eyni vaxtda Qərbin və Rusiyanın dostu olmaq mümkün deyil, imkan verməyəcəklər" yazmaqla yeni erməni baş nazirə digər bir xəbərdarlıq edib.

Yəni qənaət hasil olur ki, Moskva Paşinyanın Qərbə sarı getməsinə dərhal və olduqca sərt reaksiya verəcək. Hətta onun "iki stulda oturmaq" siyasəti qəbul edilməyəcək. Ermənistanı cəzalandırmaq, 2-3 ay sonra reytinqi indiki kimi olmayacaq Paşinyana qarşı ölkədə əks-inqilab təşkil eləmək isə Kremlin əlində su içmək kimi bir şey olar.

Hər halda, unutmaq lazım deyil ki, postsovet ölkələri arasında Ermənistan qədər Rusiyaya bağlı, ondan asılı ikinci ölkə yoxdur. Kremlin istifadə edə biləcəyi çoxsaylı resurslara, rıçaqlara gəlincə, təkcə Qarabağ məsələsindən istifadə yetər - xüsusən də nəzərə alsaq ki, Sərkisyan komandası revanş götürmək üçün marığa yatıb və Paşinyanın ayağının sürüşəcəyi günü həsrətlə gözləyir...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Qüds qətliamı da ərəb ölkələrini birləşdirə bilmədi - səbəb

## Türkiyədən sərt təpki gəldi, ABŞ və İsraildəki səfirlər geri çağırıldı; Bakıdakı səfirliklərdə də bayraqlar endirildi; Şeyxülislamdan baş verənlərə ilginc reaksiya...

**ABŞ-ın İsrail səfirliyinin Qüdsə köçürülməsinə etiraz olaraq mayın 14-dən başlayan və "Milyonluq yürüş" adlanan etiraz aksiyalarında ölən və yaralananların sayı artır. Məlumata görə, Qəzza sərhədində baş verən qarşıdurmalar nəticəsində İsrail əsgərləri tərəfindən öldürülən fələstinlilərin sayı 61-ə çatıb. 2700-dən çox yaralının olduğu bildirilir.**

İsrail ordusu 3 fələstinlinin tikanlı məftillərə partlayıcı yerləşdirərkən öldürüldüyünü bildirib. Öldürülənlərin əksəriyyəti snayperlər tərəfindən vurulub. Ordunun məlumatına görə, aksiyalara qatılanların sayı 40 mindən çox olub. İsrailin 2014-cü ildə Qəzzaya qarşı apardığı hərbi əməliyyat zamanı hər iki ayağını itirən 29 yaşlı Fadi Əbu Salah adlı gənc də İsrail ordusunun açdığı atəş nəticəsində həlak olub. Axar.az-ın məlumatına görə, Fələstin Səhiyyə Nazirliyi Qəzza yaxınlığındakı qarşıdurmada 8 aylıq fələstinli körpənin də öldüyünü bildirib.

Təəccüb və acı təəssüf doğuran budur ki, fələstinlilərin qətlə yetirilməsinə ərəb dünyasının lider dövlətlərindən hər hansı təpki yoxdur. Hətta İslam ölkələrinin zirvə sammitindəki prinsipləri də unudan aparıcı ərəb ölkələri baş verənlərə laqeyd qalmaqdadırlar. "ABŞ-ın öz səfirliyini Qüdsə köçürməsi beynəlxalq hüququn pozulmasıdır". Bu barədə məlumatı Pakistan Xarici İşlər Nazirliyi yayıb. Rəsmi İslamabad Vaşinqtonun bu qərarla BMT Təhlükəsizlik Şurasının iki dövlət prinsipini pozduğunu bildirib. Pakistan Qüds məsələsində Fələstinin yanında olduğunu açıqlayıb.

Bu mərhələdə ABŞ və İsrailin davranışlarına ən ciddi təpkini isə Türkiyə dövləti göstərir. ABŞ səfirliyinin Qüdsdə açılışından sonra yaranmış durumla bağlı Türkiyə öz səfirlərini ABŞ və İsraildən geri çağırmağa qərar verib. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib. Ərdoğan bildirib ki, Fələstində son hadisələrdə Qəza bölgəsində İsrail hərbçiləri ilə qarşıdurma nəticəsində ölənlərlə bağlı fələstinlilərlə həmrəylik nümayiş etdirmək məqsədilə Türkiyədə 3 günlük matəm elan olunub. O, eyni zamanda təcili olaraq İslam Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin dövlət başçılarının sammitinin keçirilməsi təklifi ilə çıxış edib.

"Fələstin xalqına silah çəkən İsraili şiddətlə qınayırıq. Dünya İsrailin terrorçu dövlət olduğuna bir daha şahidlik etdi". Bunu isə Türkiyənin baş naziri Binəli Yıldırım bəyan edib. "81 milyonluq Türkiyə bu gündən sonra da Fələstinə sahib çıxacaq və ona arxa olacaq", - deyə o vurğulayıb. Baş nazir əlavə edib ki, İsrail ordusunun fələstinlilərə qarşı artığı güllə insanlığa qarşı atılan güllədir.





B. Yıldırım ABŞ-ın səfirliyini Qüdsə köçürməsini bölgədə sülhü sabotaj etməsi kimi dəyərləndirib. İslam dünyasına çağırış edən B.Yıldırım müsəlmanları birlik göstərməyə səsləyib.

Matəmlə bağlı Fələstin və Türkiyənin Azərbaycandakı səfirliklərində dövlət bayrağı endirilib.

**"Biz Qafqaz müsəlmanları bəyan edirik ki, Qüds müsəlmanların - Fələstinin paytaxtıdır". Bu bəyanatla Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə çıxış edib. O qeyd edib ki, başqa bir dövlətin Qüdsə müdaxiləsi ciddi fəlakətə yol açacaq:** "Artıq bu, baş verir. 59 müsəlman həlak olub, 2 minə yaxını yaralanıb. 1990-cı ilin yanvarında biz bu təcavüzü yaşamışıq. İndi bu, orada təkrar olunur. Ermənilərin bizə təcavüzü də bunun eynisidir".

**Şeyxülislam bildirib ki, Qüds müsəlmanların doğma və müqəddəs torpağıdır:** "Qüdsdə bu gün baş verənlərin səbəbi müsəlman dövlətləri arasında birliyin olmamasıdır. Bəzi dövlətlər bu birliyin olmamasından məharətlə istifadə edir" (APA).

**Qarabağ Azadlıq Təşkilatı (QAT) da İsrail və ABŞ-ı ittiham edib, fələstinlilərin kütləvi şəkildə qətlə yetirilməsinə qarşı bəyanat verib. Bəyanatda deyilir:** "Bu dəhşətli cinayətə görə İsrail və ABŞ rəhbərliyi birlikdə məsuliyyət daşıyır. ABŞ rəhbərliyi Fələstin xalqının qanuni haqlarını, beynəlxalq hüququ kobud şəkildə pozaraq səfirliyini Qüdsə köçürməklə təxribat törədib, bu qırğınların baş verməsinə şərait yaradıb. ABŞ rəhbərliyinin həyasızlığı o həddə çatıb ki, İsrailin dinc əhalini qətlə yetirməsini özünümüdafiə kimi təqdim edir. Biz bir daha ABŞ və İsrailin antibəşəri hərəkətlərini ittiham edir, kütləvi qırğın törədənləri lənətləyirik. Biz hesab edirik ki, Fələstin xalqının Qüdsə, digər ərazilərə haqqı bütün dünya tərəfindən tanınmalı, Fələstin xalqının öz qanuni torpaqlarında öz dövlətini yaratmasına heç bir maneçilik törədilməməlidir. BMT, digər beynəlxalq və regional qurumlar İsrail hakimiyyətinin törətdiyi kütləvi qətliama obyektiv qiymət verməli, ABŞ və İsrail dünya birliyi tərəfindən qınanmalı, törətdikləri cinayətlərə görə cavab verməlidirlər. Biz xüsusi olaraq, İslam dünyasını Fələstin məsələsi ilə bağlı, son qanlı hadisələrlə əlaqədar vahid mövqe nümayiş etdirməyə, birlikdə təsirli addımlar atmağa çağırırıq. Bu cinayət bütün İslam dünyasına qarşı törədilib. İslam dünyası işğala, təcavüzə, qətliama qarşı birlikdə cavab verməlidir". QAT hesab edir ki, bütün mütərəqqi bəşəriyyət İsrail və ABŞ-ın cinayətləri qarşısında susmamalı, haqqın və həqiqətin yanında olmalıdır.

**"Lider ərəb dövlətləri görünür ki, Trampın planı ilə razılaşıb". Politoloq Hikmət Hacızadə bunu "Yeni Müsavat"a ərəb ölkələrinin sükutunu şərh edərkən söylədi. O bildirdi ki, ərəb ölkələri münaqişənin davamını perspektivsiz və mənasız sayır:** "Trampın planı haqqında isə dəqiq məlumat hələ yoxdur. Mən ancaq belə bir xəbər oxumuşam ki, pulla bir az torpaq alıb fələstinliləri ora köçürmək istəyirlər və sonra oranı guya inkişaf etdirəcəklər. İddialar var ki, bununla Tramp 70 illik qanlı münaqişəni bitirmək istəyir".

**Politoloq hesab edir ki, rəsmi Bakı bu məsələdə beynəlxalq hüquqa istinad etməlidir:** "Azərbaycanın mövqeyi BMT-nin mövqeyi kimi olmalıdır. Bakı indi baş verən qanlı toqquşmaları pisləməli və günahsız qurbanlar haqqında etirazını bildirməlidir".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**



# Azərbaycan Türkiyənin Afrindəki antiterror əməliyyatını dəstəkləyir

## Əli Həsənov Ankarada Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaranmasının 100 illiyi münasibətilə təntənəli mərasimdə çıxış edib

**"Müstəqilliyimizin dünya miqyasında tanınması və ordu quruculuğu sahəsindəki nailiyyətlər Cümhuriyyət hökumətinin əldə etdiyi ən böyük tarixi uğurlardandır".**

Bu sözləri Azərbaycanın Türkiyədəki səfirliyinin Ankaradakı Heydər Əliyev Parkında təşkil etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaranmasının 100 illiyi münasibətilə təntənəli mərasimdə çıxışı zamanı Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib.

Azərbaycan Xalq Cümhuriyyətinin və ordumuzun 100 illik yubileyləri münasibətilə təşkil olunan təntənəli mərasimdə iştirak edənlərə minnətdarlığını bildirən Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin səmimi salamlarını Türkiyə Parlamentinin sədrinə, hökumət və dövlət təmsilçilərinə çatdırıb.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və inkişaf istiqamətləri barədə ətraflı məlumat verən prezidentin köməkçisi diqqətə çatdırıb ki, müstəqilliyimizin dünya miqyasında tanınması və ordu quruculuğu sahəsindəki nailiyyətlər Cümhuriyyət hökumətinin əldə etdiyi ən böyük tarixi uğurlardandır. Bakının erməni-daşnak işğalından azad olunmasına tarixi töhfələr verən Qafqaz İslam Ordusu Silahlı Qüvvələrimizin formalaşmasına da kömək etməklə ölkəmizin və xalqımızın təhlükəsizliyinə dəstək olub.

Əli Həsənov diqqətə çatdırıb ki, H.Əliyev hələ Naxçıvan Ali Məclisinin sədri olarkən Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin və prinsiplərinin həyata keçməsi üçün mühüm siyasi qərarlar qəbul edib, dövlət atributlarımızın bərpasına nail olub və Azərbaycan hakimiyyətinə bu istiqamətdə dəyərli tövsiyələr verib. Bu məqsədyönlü siyasət prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması barədə prezidentin imzaladığı məlum sərəncam, o cümlədən dövlətimizin başçısı tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması bu istiqamətdə atılan mühüm siyasi qərarlar sırasındadır. Hazırda dünyanın bir sıra ölkələrində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbirlər keçirilir. Qardaş Türkiyədə belə bir möhtəşəm mərasimin təşkili xüsusilə əhəmiyyətlidir. İstər Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, istərsə də müstəqilliyimizin bərpası Türkiyədə böyük qardaş sevinci ilə qarşılanıb.

Prezidentin köməkçisi çıxışında Türkiyənin Suriya ərazisində həyata keçirdiyi antiterror əməliyyatının Azərbaycanda dəstəkləndiyini qeyd edərək bildirib ki, bütün bu tədbirlər Türkiyənin təhlükəsizliyi, terrordan xilas olmaq, əhalinin əmin-amanlığını təmin etmək üçün atılan addımlardır. Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın nümayiş etdirdikləri siyasi iradə xalqlarımızın və ölkələrimizin təhlükəsiz gələcəyinə xidmət edir.

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018

# Həyat imtahanından "kəsilənlər"- iki abituriyentin intiharının şok təfərrüatları

## Pənah Quliyevin atası bir ay əvvəl qətlə yetirilibmiş, ailənin tək uşağı olan Faiq Rüstəmov isə intihar etdiyi binanın damına tez-tez çıxırmış

**Mayın 13-də Sumqayıtda iki abituriyent- 17 yaşlı Pənah Quliyev və Faiq Rüstəmov intihar edib.**

Qəbul imtahanından çıxandan sonra gecə saatlarında özünü yaşadığı binanın 4-cü mərtəbəsindən ataraq intihar edən 17 yaşlı Pənah Quliyevin atası Mərkəz Quliyevin ötən ay qətlə yetirildiyi məlum olub.

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, onu öldürən öz qohumu, bacısının əri Məmmədov Eldar Mayor oğlu olub.

Belə ki, M. Quliyev bu evlilikdən öncə də bir dəfə ailə həyatı qurub. Həmin vaxt bir oğlu olub, uşaq isə 12 yaşında xəstəlikdən vəfat edib. İkinci evliliyindən isə Pənah dünyaya gəlib. Pənahın 6 yaşı olanda Mərkəz Quliyev işləmək, pul qazanmaq üçün Rusiyaya gedib və daha geri qayıtmayıb. Bir müddət əvvəl isə Bakıda yeznesi Eldar Məmmədovun adına özü üçün mənzil alıb.

Bütün bunları "Qafqazinfo"ya P.Quliyevin dayısı Nurlan Bayramov təsdiqləyib. O bildirib ki, E.Məmmədov daha sonra Mərkəzdən külli miqdarda borc pul alıb.

M.Quliyev bir müddət əvvəl Bakıya qayıdıb və E.Məmmədovdan evi onun adına keçirməsini istəyib. Yeznəsi isə ona şərt qoyub: əgər ona olan borcunu tam silərsə, evi geri qaytaracaq. Bir ara mübahisədən sonra Mərkəz onunla razılaşır və aprelin əvvəlində ikisi də sənədlərini götürərək Binəqədi Rayon Məhkəməsinə yola düşüblər. Məhkəmə binasına yaxınlaşanda Eldar Məmmədov əvvəldən özü ilə götürdüyü çəkiclə arxadan Mərkəz Quliyevin başından zərbə endirib. O, huşunu itirərək yerə yıxılıb. N.Bayramovun sözlərinə görə, E.Məmmədov yerdə uzanılı vəziyyətdə olan M.Quliyevə daha 9 zərbə endirib. Bundan sonra yaxındakı adamların köməkliyi ilə M.Quliyev xəstəxanaya yerləşdirilib.

Bu hadisələr baş verərkən isə Pənah hələ də atasını görə bilməmişdi. M.Quliyev Rusiyadan qayıtsa da "Pənahın qarşısına çıxmağa üzüm yoxdur" deyib və onunla görüşə bilməyib. Atası xəstəxanaya yerləşdirildikdən sonra bu barədə Pənaha məlumat verilib və o, 11 ildən sonra atasını ilk dəfə komada görə bilib. Bir neçə gün sonra, aprelin 17-də M.Quliyev komadan ayılmayaraq vəfat edib.

M.Quliyevin yeznəsi Eldarın adına aldığı mənzilin qiyməti təxminən 120-130 min manat olub. Onlar sonuncu məhkəmə prosesində iştirak edə bilmədikləri üçün ev yenə də Eldarın adında qalıb. Məhkəmədən ailəyə bildirilib ki, M.Quliyevin birinci oğlu vəfat etdiyi üçün Pənah yeganə varisdir. Bu dəfə isə ailəyə Pənahın 18 yaşı tamam olmadığı üçün ona vəkil tutmaq və bu yolla evi öz adına keçirməsi məsləhət görülüb. Lakin imtahan günü Pənahın intiharı bu işi də yarımçıq qoyub.

17 yaşında həyatına qəsd edən P.Quliyevin son sözü də bu evlərlə bağlı olub: "Evlərin hamısını anama verirəm, əgər qalsa..."



Pənah Quliyev




Yada salaq ki, elə həmin gün Sumqayıt şəhərində daha bir abituriyent intihar edib. 17 yaşlı Faiq Rüstəmov özünü 14-cü mərtəbədən atıb və hadisə yerindəcə vəfat edib.

İntihar edən yeniyetmə az bal topladığı üçün özünü öldürüb.

Lent.az saytı hadisənin təfərrüatını öyrənib.

Yaxınlıqda satıcı işləyən və adının açıqlanmasını istəməyən bir xanım deyib ki, hadisə səhər 11 radələrində baş verib:

"Düz blokun qabağına düşdü. Əvvəlcə tappıltı eşitdim. Çölə çıxanda şoka düşdüm. Hələ də dizlərim əsir. Cavan və yaraşıqlı bir uşaq idi. 14-cü mərtəbədən atıb özünü. Çiynində də çantası vardı. Kitab-dəftərləri yerə dağılmışdı".

Bina sakinləri bildirir ki, bu, burada baş verən ilk intihar hadisəsi deyil. Belə ki, son beş ayda 3-4 intihar hadisəsi baş verib. Satıcı deyib ki, iki həftə əvvəl də burada intihar hadisəsi olub. Həmin şəxs də Faiqin intihar etdiyi yerdən özünü atıb.

**Qohumlar deyiblər ki, Faiq dərslərini çox yaxşı oxuyurmuş, sınaq imtahanlarındakı göstəriciləri də yaxşıymış:** "Ailənin aman-zaman, tək uşağı idi. Sınaq imtahanlarında 450-500 bal yığırdı. İstədiyi balı toplaya bilməyib. Deyirlər ki, ona görə özünü öldürüb".



Faiq Rüstəmov bu binanın damından özünü atıb



Qonşuların və yaxınlarının sözlərinə görə, Faiq intihar etdiyi yerə - 14-cü mərtəbəyə ilk dəfə deyil çıxırmış. O, dəfələrlə hazırlıq yoldaşları və dostları ilə həmin yerə qalxıb. Şəkillər çəkdiriblər, selfilər ediblər. Dəfələrlə şəhərin mənzərəsinə məhz buradan baxırlarmış. Nəticəni öyrəndikdən sonra hazırlaşdığı məkana yaxın yerdə olan bu binaya gedib və özünü atıb.

Faiqin anası onkoloji mərkəzdə həkimdir. Faiq də Tibb Universitetinə qəbul olmaq istəyirmiş, amma balı yetərli olmayıb.

Faiq atasız böyüyüb. Hələ körpə yaşlarından atası ilə anası ayrılıb. Anası övladına təhsil vermək üçün hər cür şərait yaradıb. Dərslərinə birbaşa nəzarət edib.

**O, Tağıyev qəsəbəsindəki 32 saylı məktəbdə təhsil alıb. Məktəbin müəllimi Kərim Kərimovun sözlərinə görə, hələ də Faiqin intihar etməsi xəbərinə inana bilmir:** "Gözəl bir ailənin uşağı idi. Çox tərbiyəli, fərasətli uşaq olub. Güclü yaddaşı vardı. Sakit uşaq kimi xatırlayıram. Tərbiyəsinə söz ola bilməzdi. Niyə belə edib, bilmirəm. Dərslərini də çox yaxşı oxuyurdu".

"Valideynlər uşaqlara "Sən oxumasan, vəziyyətin pis olacaq", "Hüquq fakültəsinə və ya hansısa fakültəyə daxil olmasan, dilənçi olacaqsan" deməklə düzgün etmirlər. Belə şeylərlə uşağı yükləyirlər. İntiharların da səbəbi budur. Valideyn uşağa demir ki, sən filan peşəni seç, amma məcbur edir ki, filan fakültəyə daxil olmalısan. Onlar uşaqlara düzgün istiqamət verməlidirlər".

**Modern.az-ın məlumatına görə, bunu Milli Məclisin Ailə, qadın və uşaq komitəsinin iclasında yeni hazırlanan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Tahir Rzayev deyib.**

**O qeyd edib ki, xarici ölkələrdə bu məsələlər xüsusi diqqətdə saxlanılır:** "Uşaqlar niyə intihar etməlidirlər ki? Axı hamı alim ola bilməz... Burada televiziyaların da rolu var. Onlar da bu məsələni diqqətdə saxlamalıdırlar. Valideyn işdə olur, uşaq televiziyaya baxır. Bəzi hallarda verilişlərdə elə yanlışlıqlara yol verilir ki, uşaqlara mənfi təsir edir. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunu qəbul edildikdən sonra tələbləri pozanlar ciddi cəzalandırılmalıdır".

❑ **Hazırladı: ORXAN, "Yeni Müsavat"**

# Heydər Əsədova milyonluq villa üçün torpağı kim bağışlayıb-təfərrüat

## Keçmiş kənd təsərrüfatı nazirinin yeni villaları üzə çıxdı

**Keçmiş kənd təsərrüfatı naziri Heydər Əsədovun Bakıda milyon manatlarla qiyməti olan 2 yeni villası üzə çıxıb. Unikal.org-un əldə etdiyi məlumata görə, onun paytaxtın Binəqədi rayonu Varovski qəsəbəsində olan villalarından biri 5 mərtəbəli, tikintisi 6 milyon manata başa gəlib. Həmin villa 20 sot torpaq sahəsinin içərisində tikilib. Digər 3 mərtəbəli villası isə 2 milyon manata tikilib.**

"Yeni Müsavat" xəbər verir ki, sabiq nazirin Binəqədi rayonu ərazisində nəhəng villa inşa etdirməsi yeni xəbər deyil. Hələ iki il əvvəl mediada belə xəbərlər dərc olunmuşdu. Həmin xəbərlərdə iddia olunurdu ki, villanın yerləşdiyi ərazidə torpağın 1 sotu 100 min manata başa gəlir. Bildirilirdi ki, villanın yerləşdiyi torpaq sahəsini nazirə iş adamlarından biri hədiyyə edibmiş. Həmin villanın təmir işlərini isə digər iki iş adamı öz boynuna götürübmüş.

H.Əsədovun nazir postuna keçdikdən sonra həm ölkədə, həm də xaricdə biznesini genişləndirdiyi deyilir. Bildirilir ki, Heydər Əsədovun xaricdəki biznesini yaxın adamlarından biri idarə edib. H.Əsədovun kürəkəni Anar Məmmədovun hesabları üzərindən ölkədən külli miqdarda pullar çıxardığı da iddia edilir. Yada salaq ki, sabiq nazirin oğlu Asif Əsədzadənin atasının Azərbaycan dövlətindən yayındırdığı pullar hesabına Londonda çoxlu mülklərə, ən bahalı avtomobillərə sahib olduğu deyilir.

Hətta xarici KİV-lər Əsədovun oğlunun ərəb şeyxləri ilə rəqabətə girdiyini də yazırdılar.

H.Əsədov nazir olduğu dövrdə kənd təsərrüfatı sahəsinə külli miqdarda vəsait ayrılıb. Bura yalnız müxtəlif bitkilərin əkini üçün dövlətin verdiyi dotasiyalar deyil, maşın və texnikanın, damazlıq heyvanların, hətta tinglərin alınmasına, çoxsaylı laboratoriyaların qurulmasına sərf olunan yüz milyonlarla manat dövlət vəsaiti aiddir. H.Əsədov qudası, sabiq nəqliyyat naziri Ziya Məmmədov vəzifəsini itirərkən öz postunu saxlaya bilmişdi. Hətta aqrar sektor üçün əlavə irihəcmli dövlət vəsaitlərinin ayrılması onun kreslosunda möhkəmləndiyi rəyi yaratmışdı.



İşdən çıxarılandan sonra Heydər Əsədov yalnız bir dəfə mediaya qəzəbli açıqlaması ilə yadda qalıb. "Mənə niyə zəng etmisiz. Mən hazırda məşğulam" deyərək açıqlama verməkdən yayıb.

Sabiq nazirin fəaliyyətinin yoxlanıb-yoxlanılmaması ilə bağlı dəqiq bilgi yoxdur. Yalnız o məlumdur ki, Hesablama Palatası bu ilin yanvar ayının 30-da Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin dövlət büdcəsindən ayrılan vəsaitlərin və istifadəsinə dair hesabatı Milli Məclisə göndərib.

Yeri gəlmişkən, bu günlərdə deputat Vahid Əhmədov sabiq nazirlərin fəaliyyəti ilə bağlı danışarkən maraqlı mətləblərə toxunub. "Köhnə nazir vəzifədən gedən kimi başlayırlar onun üstünə düşməyə. Filan nazir beş milyard yedi, filan nazir iki milyard yedi, dağıdı-tökdü... Həmin şəxslər nazir olan zaman Hesablama Palatası onun tabeliyində olan qurumu yoxlayıb. Maliyyə Nazirliyinin xüsusi müfəttişlər qrupu tərəfindən yoxlamalar aparılıb. Digər qurumları hələ demirəm. Əgər bu insanların günahı varsa, vaxtında cinayət məsuliyyətinə cəlb edin.

Onlar da cavab versinlər. Yoxsa 10-15 il nazir işləyəndən sonra vəzifəsini itirənlərin mətbuatda və sair yerlərdə üstünə düşülür ki, bu da anlaşılmır. Bunlara heç kim cavab vermək istəmir" deyən deputat Hesablama Palatasının fəaliyyətini gücləndirməyə çağırıb: "Hesab edirəm ki, Hesablama Palatasının dövlət büdcəsinə nəzarət mexanizmini gücləndirmək lazımdır".

❑ **"YM"**

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ danışıqları dondurulur - təhlükəli gəlişmə

## "Nə sülh, nə də müharibə" vəziyyəti daha qəliz fazaya keçir; işğalçı ölkədəki qeyri-müəyyənlik nizamlama prosesinin aqibətini qaranlıq dalana sala bilər; **erməni publisist:** "Sərkisyan hərbi cinayətkar idi, Paşinyan isə..."

**Ermənistanda küçə inqilabının təzyiqi altında reallaşan baş nazir dəyişikliyi Qarabağ danışıqları ətrafında qeyri-müəyyənliyi artırıb. Bu, bir yandan avantürist baş nazir Nikol Paşinyanın özünə təzə komanda formalaşdırması, prosesə təzə-təzə girməsi ilə əlaqələndirilirsə, digər yandan, gözlənilən erkən parlament seçkilərinə görə nizamlama prosesində taym-autun davam edəcəyi deyilir.**




Yəni haradasa, ən azından, ilin sonuna kimi Qarabağ mövzusu münaqişə tərəfləri arasında ciddi müzakirə predmeti olmaya və ya faktiki, dondurula bilər. Bu isə təmas xəttində yeni və geniş miqyaslı hərbi toqquşçma riskinin artması deməkdir. Nədən ki, işğalçı tərəfi mövcud status-kvonun davam eləməsi sərfəlidirsə, ərazisinin 20%-i işğal altında olan Azərbaycan üçün belə durum məqbul sayıla bilməz.

Hərçənd Ermənistan üçün də nə sülh, nə də müharibə durumu perspektiv baxımından əlverişli ola bilməz. Çünki aydındır ki, blokada rejimi, müharibə vəziyyəti aradan qalxmayınca, Paşinyan ölkədə köklü islahatlar apara, iqtisadiyyatı dirçəldə, Ermənistandan kütləvi köçü dayandıra, böyük xarici sərmayələri Ermənistana cəlb edib və çoxsaylı iş yerləri aça bilməyəcək. Bunu yəqin ki, onun özü də yaxşı anlayır.

Odur ki, məntiq diktə edir ki, bir azdan o, populist bəyanatların azaldıb acı reallığın diktə elədiyi məntiqlə hərəkət etməli olacaq. Əks halda, ermənilərin kumiri çox qısa zamanda sərkisyanlaşaraq, öz xalqının, xüsusən də gənclərin gözündən düşə bilər.

*****

Bəs Paşinyanın Azərbaycana yaxınlaşmaq, anlaşmaq imkanları necə görünür? Bu yöndə hansısa nikbin təxminlər varmı, yoxsa o da bütünlüklə sələfi Serj Sərkisyanın perspektivsiz yoluna qayıdacaq?

**"Serj Sərkisyan üçün danışıqlar prosesini aparmaqda çətinliklər var idi, nədən ki, Azərbaycanda o, hərbi cinayətkar elan olunub. Bu isə onsuz da qəliz nizamlama prosesini daha da qəlizləşdirirdi. Bu xüsusda Paşinyan üçün bir yandan danışıqlara getmək asandı. Axı o, Qarabağ klanını təmsil eləmir. Ancaq başqa yandan, problemin həlli üçün Ermənistanda kimin baş nazir olması və onun Qarabağla bağlı olub-olmaması elə də önəm kəsb eləmir".**

**"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri "Vestnik Kavkaza" nəşrinə erməni yazıçı-jurnalist Armen Qasparyan deyib.**

**Onun sözlərinə görə, Ermənistan üçün Qarabağ məsələsi olduqca həssas mövzudur və istənilən halda ölkənin rəhbəri Serj Sərkisyan dönəmindəki yanaşmaya sadiq qalacaq:** "Bu mənada mənim heç bir şübhəm yoxdur. Bəs danışıqları aparmaq lazımdırmı? Əlbəttə, lazımdır. Əsas problem odur ki, münaqişə 30 ildir ki, mövcuddur. Əgər bir nəsli 15 il hesab eləsək, belə çıxır ki, müharibə dönəmində artıq iki nəsil yetişib - buradan çıxan bütün nəticələrlə birgə. Əsas nəticə də budur ki, hər iki ölkədə bir-birinə qarşı nifrətin total təbliğatı aparılıb. Bu faktoru necə aradan qaldırmaq olar? Mən şəxsən bilmirəm. Çünki sülh formatında yaxşı və pozitiv güzəştlərə kimi anlaşmaq olar, ancaq əgər cəmiyyətlər on illiklər ərzində belə bir ruhda tərbiyə edilib ki, mütləq adamları öldürmək lazımdır, o zaman bu vəziyyəti aradan qaldırmaq olduqca çətin olacaq".

*****

Ancaq bu da bir reallıqdır ki, legitim hakimiyyət başçıları istənilən qeyri-standart qərarla bağlı ölkə ictimai rəyini kompromisə hazırlaya bilirlər. Söhbət ən əvvəl işğalçı Ermənistanın təzə və özündənrazı baş nazirindən gedir. Artıq vurğulandığı kimi, əgər o, gerçəkdən də öz xalqının rifahını yaxşılaşdırmaq istəyirsə, - buna o, geniş kütlə qarşısında dönə-dönə söz verib, - o zaman hər şeydən öncə Dağlıq Qarabağ ixtilafının həllinə diqqət yönəltməli, danışıqların konstruktiv məcrada bərpasında hamıdan çox maraqlı olmalıdır. Təbii ki, heç vaxt reallaşmayacaq maksimalist mövqe və təkliflərdən uzaq durmaqla.

Bunu etməyəcəksə, o halda Sərkisyan dönəmindən də miskin durumda olan, emiqrasiyanın ən yüksək həddə çatdığı bir Ermənistanı görəcəyik. Düşünmürük ki, belə sonluğa görə ermənilər onun başını sığallayacaqlar. Bu mənada "xalqın baş naziri" Paşinyan əslində ermənilərin son şansı və ümididir. Hələ ki o, öz etimad limiti və şansından "yeyir".

*****

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da hesab edir ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasətində hələ ki ciddi bir dəyişiklik görünmür (modern.az). "Paşinyan faktiki olaraq xarici siyasət, Qarabağ məsələsində eks-prezident Sərkisyanın siyasətini davam etdirir. Başqa cür olması da gözlənilən deyil. Çünki Ermənistanın elə bir siyasətçi yoxdur gəlib desin ki, Dağlıq Qarabağ Azərbaycanındı. Təəssüf ki, bu, Ermənistanın reallığıdır", - deyə o qeyd edib.

**Onun sözlərinə görə, Paşinyanın Qarabağa təxribatçı səfəri və verdiyi təxribatçı açıqlamalar ondan xəbər verir ki, yeni baş nazir olsa da, Sərkisyanı devirsə də, Qarabağ məsələsində dəyişiklik gözləyə bilmərik:** "Dəyişikliyi özümüz etməliyik. Paşinyan yaxın müddətdə Ermənistan ordusunda itkiləri görsə, çarə tapmaq məcburiyyətində qalacaq. Ona görə də onun vəziyyəti Sərkisyanın vəziyyətindən də ağırdır. Hamı Sərkisyana öyrəşmişdi, separatçı idi, hamı onun siyasətini bilirdi. Paşinyan isə yeni gəlib və yeniliklər vəd edir. Əgər Qarabağ siyasətində yenilik olmasa və Azərbaycan ordusu təzyiqi davam etdirsə, Paşinyan hansısa bir addım atmaq məcburiyyətində qalacaq. Ona görə Paşinyana dövləti idarə etmək Sərkisyandan da ağır gələcək. Məncə, biz təşəbbüsü ələ almaq üçün yaxşı bir fürsət də yaxalamışıq. Amma diplomatik, iqtisadi və hərbi amillərlə Paşinyanın vəziyyətini daha da ağırlaşdıra bilərik".

**E.Şahinoğlu xatırladıb ki, yeni baş nazir Ermənistanda vəziyyəti düzətmək üçün islahatlar aparmalıdır:** "Paşinyan ilk olaraq sosial problemlərin həllinə nail olmalıdır. Amma bunun üçün zəmin varmı? Bu qədər pulu ona kim verəcək? Bundan başqa da Azərbaycan və Türkiyə ilə münasibətləri düzətmədən, sərhədləri açmadan, regional layihələrdə iştirak etmədən Ermənistanın heç bir gələcəyi yoxdur. Bunların baş verməsi üçün isə torpaqlarımızı boşaltmalıdır. Ona görə mən düşünmürəm ki, iqtisadi islahatlar sahəsində çox böyük uğura imza ata bilərlər".

*****

Beləliklə, Ermənistanda davam edən siyasi qeyri-müəyyənlik və Paşinyanın davakar ritorikası fonunda "nə sülh, nə də müharibə" vəziyyəti daha qəliz fazaya keçməkdə, faktiki, Qarabağ danışıqları qeyri-müəyyən müddətə dondurulmaqdadır. Bu isə təhlükəli bir gəlişmədir.



## Bu gün təmas xəttində növbəti monitorinq keçiriləcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 16-da Xocavənd rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster, Ermənistan tərəfindən isə şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018

# Azərbaycan müxalifəti yeni erməni liderindən danışdı

**Ermənistanda əhalinin etirazı nəticəsində cinayətkar Serj Sərkisyan istefa verdi və Nikol Paşinyan baş nazir postuna gətirildi. Paşinyan hakimiyyətə gələndən sonra onunla bağlı Azərbaycan ekspertləri müxtəlif fikirlər səsləndiriblər. Bəs ölkə müxalifətinin nümayəndələri onunla bağlı nə düşünürlər?**





**Natiq Cəfərli:** "Qarabağ münaqişəsi baxımından daha sərt mövqe tutacağı görünür"
**Sərdar Cəlaloğlu:** "Paşinyan siyasi cəhətdən kor olduğunu sübuta yetirir"

**VİP sədri Əli Əliyev** bildirib ki, Ermənistan hakimiyyətində olan dəyişikliyin Azərbaycana heç bir faydası ola bilməz: "O baxımdan ki, xüsusən demokratik yolla, xalqın səsi ilə hakimiyyətə gəlmiş erməni siyasətçiləri bütün hallarda öz xalqlarının maraqlarını qoruyacaqlar. Erməni maraqlarının qorunması o deməkdir ki, onlar işğal edilmiş torpaqlarımızı qaytarmayacaqlar. Eyni zamanda yurd-yuvasından edilmiş vətəndaşlarımızın da öz dədə-baba torpaqlarına dönməsinə imkan verməyəcəklər. Hazırkı hakimiyyət komandası daha çox Qərb yönümlüdür. Onların niyyəti isə Ermənistanı Qərbə doğru aparmaqdır. Əslində Sərkisyan da bu işi başlamışdı. Bunlar da davam edəcəklər. Belə olan halda Ermənistanın Rusiya ilə münasibətlərinin gərginləşməsi anından istifadə etməyə çalışmalıyıq. Bunun isə baş tutub-tutmayacağı hələ bilinmir".

**REAL Partiyasının İdarə Heyətinin üzvü Natiq Cəfərli isə vurğulayıb ki, Sərkisyan rejimi Ermənistanda tarixə gömülməsi pozitiv hadisədir:** "Çünki o adamın əli Xocalıda azərbaycanlıların qanına batmışdı. Terror hadisələrində birbaşa günahkar şəxslərdən biri idi. Belə bir şəxsin Ermənistan rəhbərliyindən kənarlaşmasını pozitiv hal kimi dəyərləndirmək olar. Ermənistan cəmiyyəti artıq həmin ölkədə olan korrupsiya rejimindən, yerlibazlıqdan bezmişdi. Bunun təpkisi də hakimiyyət dəyişikliyi ilə nəticələndi. Paşinyanın ilkin bəyanatlarından belə məlum olur ki, o, öz ölkəsi üçün çox şey etmək istəyir. Lakin onun Dağlıq Qarabağ münaqişəsi baxımından daha sərt mövqe tutacağı da görünür. Çünki o, xalq hərəkatı dalğasında hakimiyyətə gəlib. Hərəkat ərəfəsində hakimiyyətə gəlmiş şəxslər isə bu kimi məsələlərdə daha radikal və sərt mövqedə durmaqda israrlı olurlar. Dünyanın hər yerində belə bir proses baş verəndə bunu görmüşük. Onun son bəyanatlarından bunu da görürük ki, o, dünyaya daha çox açılmağı, Ermənistanı yeni bir mərhələyə çıxarmağı düşünür. Əgər doğrudan da bu yöndə verdiyi bəyanatlarda səmimidirsə, Ermənistanın inkişafı, onun işğalçılıq siyasətinə son qoymasından asılıdır. Yəni Azərbaycanla, Türkiyə ilə münasibətlər düzəlməsə, Dağlıq Qarabağ münaqişəsi ədalətli həllini tapmasa Ermənistana ciddi investisiyaların gələcəyini düşünmürəm. Paşinyan verdiyi vədləri yerinə yetirmək üçün Dağlıq Qarabağ münaqişəsində daha adil davranmalı və işğala son qoymalıdır. Xalq kütləsinin çiyinində hakimiyyətə gələcək bir şəxsin Dağlıq Qarabağ münaqişəsində güzəştə gedəcəyini düşünmək də sadəlövhlük olar. Açığı, bizi daha çətin bir danışıqlar dövrü gözləyir. Düşünürəm ki, Paşinyanın hakimiyyəti dövründə danışıqlar daha da sərt keçəcək".

**ADP sədri Sərdar Cəlaloğlu isə bunun əksini düşünür:**

"Türkiyə bir küçəsi boyda dövlətlə əlaqə yaratmaq naminə milyardlarla xeyir götürdüyü və qan qardaşı, strateji müttəfiqi olan Azərbaycanın maraqlarını heç vaxt qurban verməz. Məhz bu faktın özü Paşinyanın siyasi cəhətdən kor olduğunu sübuta yetirir. Bu gün hətta Paşinyanın ağası, Ermənistanın hamisi olan Rusiyanın Türkiyənin dəstəyinə ehtiyacı varsa, Paşinyan Azərbaycana meydan oxuduğu halda Türkiyə ilə dost olmaq istəyirsə, bu, o deməkdir ki, bu adam normal düşüncə tərzinə malik deyil, ağılsız biridir".

**AG Partiya lideri Tural Abbaslı hesab edir ki, Paşinyanın digər erməni liderlərindən heç bir fərqi yoxdur:** "Mənim üçün hamısı eyni tip xarakterli siyasətçilərdir. Çünki mənim onlara olan münasibətim, onların Azərbaycana, Qarabağ məsələsinə münasibətləri ilə ölçülür. Düşünmürəm ki, Paşinyan Sərkisyandan fərqli olaraq Azərbaycana görə hansısa dövlət marağında güzəştə getsin. Bir məsələdə fərqli ola bilər ki, Paşinyan Avropaya istiqamətlənən işlər görə bilər. Bu zaman isə ola bilər ki, Ermənistanın iqtisadiyyatı bu və ya digər formada düzələr, idarəçilikdə korrupsiya aradan qalxar. Bu isə Ermənistanın güclənməsinə səbəb olar. Burada bir məsələ də var ki, Paşinyan bu addımı atarsa, o zaman illərdir ki, Ermənistanı saxlayan Rusiya ilə arası dəyər. Hesab edirəm ki, Ermənistanın Avropadan qazanacağından daha çox Rusiyadan itirəcəkləri onu ziyana sala bilər. Gözləntimiz odur ki, Paşinyanın Rusiya ilə arası dəyərsə və bundan da Azərbaycan hökuməti istifadə edə bilərsə, o zaman Qarabağ münaqişəsi mövzusunda bizim xeyrimizə hansısa dəyişiklik ola bilər. Başqa hallarda isə utopik fikirlərdə deyiləm ki, bu adam demokratdır və məsələyə demokratik formada yanaşacaq və saire. Məncə, hələ Paşinyan da özü üçün dəqiqləşdirməyib ki, o, nə etməlidir. Müxalifətdə olan zaman "Rədd olsun Rusiya" demək asandır. Çünki heç bir məsuliyyətin, öhdəliyin yoxdur. Bu gün isə baş nazirsənsə, deməli, xalq qarşında öhdəliyin, məsuliyyətin var. Paşinyan artıq hiss edir ki, "Rədd olsun Rusiya" şüarını qışqırmaq o qədər də asan deyil. Güman edək ki, Paşinyan yanlış qərarlar verər və Azərbaycan da bu fonda Qarabağla bağlı hansısa irəliləyişlər əldə edə bilər".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# İsrailin "Eurovision"un qalibi olmasında Qüds amili

## Ekspert: "Avropa ölkəsi olmayan İsrailin o yarışmada iştirak etməsi çox maraqlıdır"

**Artıq bir "Eurovision-2018" mahnı müsabiqəsi də geridə qaldı. Portuqaliyanın paytaxtı Lissabonda keçirilən, sayca 63-cü müsabiqənin budəfəki qalibi İsrail təmsilçisi oldu. Belə ki, Netta Barzilai "TOY" (Oyuncaq) mahnısı ilə 529 xal toplayaraq ölkəsini birinci yerə sahib etdi.**



Qeyd edək ki, bu, müsabiqəyə ilk dəfə 1973-cü ildə qoşulan İsrailin 4-cü qalibiyyətidir. Beləliklə, "Eurovision-2019" İsraildə baş tutacaq. Yarışmadan dərhal sonra isə bu ölkənin baş naziri Benyamin Netanyahu qalmaqallı bəyanat verib. O, öz tvitter səhifəsində yazıb: "Netta, sən İsrailə böyük şöhrət gətirdin. Növbəti il - Qüdsdə!"

ABŞ-ın öz səfirliyini Qüdsə köçürməsi və buna görə İsraillə bir sıra müsəlman dövlətləri arasında gərginliklərin yaşandığı, Qüds məsələsinin dünyanın gündəmində əsas yer tutduğu bir vaxtda "Eurovision" mahnı müsabiqəsinin qalibinin məhz İsrail olması birmənalı qarşılanmayıb. Müxtəlif ictimai, siyasi xadimlər İsrailin qalib olmasının təkcə həm də siyasi məqsədli olduğu qənaətindədirlər.

**Məsələn, ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, "Eurovision-2018"in qalibinin İsrail elan olunmasında siyasi məqsədlər var. "Eurovision-2019"u Qüdsdə keçirməklə mübahisə mövzusu olan bu şəhərin sırf İsrailə məxsusluğunu həm də bu yolla leqallaşdırmaq niyyəti güdülür:** "Əvvəla, hər kəsə bəllidir ki, "Eurovision" mahnı yarışması geylərin yarışması olaraq yaradılıb. Bunu guya demokratiyanın, bərabərliyin bariz nümunəsi kimi yaradıblar və keçirirlər. Bu yarışmanı Europadakı yəhudilər gündəmə gətiriblər və bundan sonra keçirilməyə başlanıb. Azlıqda olan yəhudilər böyük islam dünyası üzərində bütün sahələrdə üstünlüyə cəhd edir. "Eurovision"un mahiyyəti ilə yəhudilərin apardığı siyasətin mahiyyəti üst-üstə düşür. ABŞ-ın Qüdsü tamamilə İsrailinki etmək istiqamətində atdığı addımlardan sonra yəhudilər bir çox elə addımlar atacaqlar ki, beynəlxalq ictimaiyyət bu və ya başqa şəkildə bu addımlarda iştirak edəcək və buradan da Qüds passiv legitimləşmə yolu ilə yəhudilərin paytaxtına çevriləcək. "Eurovision-2018"in qalibinin İsrail olması buna xidmət edir".

**S.Cəlaloğlu hesab edir ki, ümumiyyətlə, İsrailin "Eurovision" yarışmasında iştirakında bir paradoks var:** "Bu yarışma adından da göründüyü kimi, Avropa sərhədləri daxilində keçirilən mahnı yarışmasıdır. İsrail isə Avropa dövləti deyil. Bu baxımdan Avropa ölkəsi olmayan İsrailin o yarışmada iştirak etməsi çox maraqlıdır. Nəyə görə Hindistan, Pakistan, Çin kimi nəhəng dövlətlər bu yarışmada iştirak eləmir, Avropa dövləti olmayan İsrail isə iştirak edir? Bax buna diqqət eləmək lazımdır ki, İsrail hansı prinsiplə ora daxil olur. Bu sualların cavablarından biri odur ki, "Eurovision" siyasiləşib, müəyyən dövlətlərin reytinqlərinin qaldırılması üçün istifadə olunur. Bu yarışmada dövlətlərin qruplaşması, dost və düşmənin seçilməsi kimi məsələ önə çıxır və bu yarışma dövlətlərarası münasibətləri özündə ifadə eləyən bir prosesə çevrilib. Son illərdə ortaya çıxdı ki, bir sıra böyük miqyaslı idman yarışlarında nəhəng pulların rol oynadığı rüşvət amili həlledici təsirə malikdir. Əgər beynəlxalq idman yarışlarının təşkilində bu qədər rüşvət, korrupsiya faktları varsa, hər halda, "Eurovision" mahnı yarışmasında da amil istisna deyil".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018

**Sabah mübarək Ramazan ayı başlayır. Mayın 17-si orucluğun ilk günüdür. Ötən gün Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Ramazan ayı münasibətilə fətva verib. Fətvada qeyd olunur ki, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının 2018-ci il üzrə hesablamalarına görə, Ramazan ayının 1-i Ayın ölkə ərazimizin üfüqünə uyğun görünməsinə əsasən Miladi tarixlə may ayının 17-nə təsadüf edəcək. Mayın 16-sı axşam niyyət gecəsi olacaq.**



# Sabah mübarək Ramazan ayı başlayır

## Şeyx mollalara xəbərdarlıq elədi: "Bu işi tutanlar..."

APA-nın məlumatına görə, fətvada bildirilir ki, Quran-Kərimin nazil edildiyi Qədr gecələrinin olduğu, günahların silindiyi və savabların ikiqat artdığı Ramazan ayında oruc tutmaq Uca Yaradan tərəfindən bütün müsəlmanlara vacib edilib. Orucun fəzilətlərindən bəhs edən Həzrət Peyğəmbər (s) buyurub: "Oruc (insanı) Cəhənnəm odundan qoruyan bir qalxandır".

Bundan başqa, QMİ hər il olduğu kimi, bu il də AMEA Şamaxı Astrofizika Rəsədxanası ilə birgə Ramazan ayının başlanğıcı, namaz vaxtları və gündəlik dualarını, eləcə də bayram tarixini müəyyənləşdirən xüsusi təqvim tərtib edib. Qazılar Şurası və Elmi-Dini Şura bildirir ki, digər mənbələrdən əldə edilən, təxribat və təfriqə xarakteri daşıyan, habelə məzhəb və vaxt ayrı-seçkiliyi yaradan təqvimlərin dindarlar tərəfindən istifadəsi yolverilməzdir, din xadimləri belə halların qarşını almağa məsuldurlar.

QMİ Fitr bayramının vaxtını da elan edib. Şəvval ayının hilalının görünməsindən asılı olaraq bayram iyunun 15-nə təsadüf edəcək. Qazılar Şurası həmçinin fitrə zəkatının məbləğini elan edib - adambaşına 5-10 manat arası.

Qazılar Şurasının toplantısında bir sıra mövzulara, o cümlədən Ramazan ayında gün ərzində təşkil olunan məclislərdə iştirak mövzusuna münasibət bildirilib. QMİ əməkdaşı olan ruhanilərin Ramazan ayında gün ərzində - iftardan qabaq - təşkil olunan məclislərdə iştirak etməsinə görə xəbərdarlıq edib. Xatırladılıb ki, Ramazan ayı ərzində iftar vaxtından qabaq açılan süfrələrdə iştirak etmək böyük günahlardandır və xəbərdarlığı nəzərə almayanlar barəsində ciddi tədbirlər görüləcək. Qazılar Şurası tövsiyə edir ki, bu əziz günlərdə dinimizdə müqəddəs sayılan şəxslərlə yanaşı, Vətənimiz və torpaqlarımız naminə canlarından keçən şəhidlərimizin də xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, xütbə və moizələrdə vətənpərvərlik hisslərinin təbliğinə xüsusi diqqət yetirilsin.

**QMİ sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə orucluq vaxtı iftardan əvvəl imkanlı adamların məclislərinə qatılan axund və imamlara xəbərdarlıq edib. Şeyxülislam bildirib ki, iftardan əvvəl imkan şəxslərin orucluğu saymayaraq, guya ehsan verirmiş kimi məclis təşkil etməsi, xüsusən də bizim mollaların ora qatılması Allaha qarşı çıxmaqdır. O qeyd edib ki, belə hal aşkarlanarsa, həmin din xadimi cəzalandırılacaq:** "Belə hal dinə şəkk, Allaha üsyan etməkdir. Kiminsə imkanı varsa, bu, o demək deyil ki, orucluğun əleyhinə çıxmalıdır".

**Şeyxülislam həmçinin deyib ki, Azərbaycanda saxta molla problemi var. Bildirib ki, QMİ-də qeydiyyata alınmayan, icazəsi olmayan insanlar molla paltarı geyinib fətva verirlər və bu, ciddi problemdir:** "Faktiki olaraq, bu, qanun pozuntusudur. Bizim tərəfimizdən təyin edilməyən insanların dini mərasimlər aparmasının qarşısı alınmalıdır və bu istiqamətdə iş gedir. Mən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən də xahiş edərdim ki, bu işdə bizə kömək etsin".

**Quran-Kərimdə iman edən müsəlmanlara ildə bir dəfə - Ramazan ayında - oruc tutmaq əmr olunub. Qeyd edək ki, Ramazan Quranda adıçəkilən yeganə aydır.** "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" (Bəqərə, 183-cü ayə). Fiziki sağlamlığı yerində olan, səfərdə olmayan müsəlmanın hər il Ramazan ayında bir ay boyunca oruc tutması vacibdir.

Məlum ayədən də göründüyü kimi, oruc tutmaq öncəki ilahi dinlərdə də olub. Müsəlmanların yerinə yetirdiyi Ramazan orucu yalnız yemək və ya maye qəbul etmək deyil, həm də bir çox qadağa və məhdudiyyətlərlə xarakterikdir. Bu əməllər insanı gün ərzində maddi dünyadan az da olsa ayırır və daha çox mənəvi-ruhani həyata bağlayır. Bu səbəbdən də Ramazan həm də "şeytanın zəncirləndiyi ay" adlandırılır. Qadağalar isə daha çox insanı mənəvi aləmə bağlamaq məqsədi güdür.

Miqdarından asılı olmayaraq orucluq vaxtı bilərəkdən yeyilən və ya içilən hər şey orucu pozur. Ağız suyunu udmaq isə orucu pozmur. Oruc vaxtı ağız boşluğuna daxil olan bəlğəmi, dişin dibində qalan yemək qalıqlarını bilərəkdən udmaq orucu pozur. Ancaq bütün bunlar unutqanlıq üzündən olduqda oruc pozulmaz.

İstər Ramazan ayında, istərsə də qeyri vaxtlarda oruc halında sübh namazından şam namazına qədər cinsi yaxınlıqda olmaq olmaz. Sevişmək və müxtəlif yollarla spermanın xaric olması da orucu pozur. Yuxuda və ya qeyri-ixtiyari olaraq spermanın xaric olması isə orucu pozmur.

Allahın, Onun peyğəmbərinin (s) və məsum imamların adından yalan danışmaq, yəni aid olmayan hər hansı sözü onlara aid etmək orucu pozur. Düz bildiyi bir şeyi söyləmək, amma sonradan səhv olduğu məlum olan hər hansı bir söz orucu pozmur. Bundan əlavə, istər halal, istərsə də haram olsun, qatı toz halında olan tüstünün boğazdan keçməsi orucu pozur. Unutqanlıq üzündən olduqda isə pozmur. Qatı toz udmaq məsələsində müsəlman ilahiyyatçıları arasında fikir ayrılığı olsa da, ümumi qənaət budur ki, qatı toz, buxar, tüstü, o cümlədən siqaret orucu pozur. Həmçinin oruclu ikən bilərəkdən başı bütünlüklə suya salmaq və ya suya baş vurmaq orucu pozur. Bu mövzuda da ilahiyyatçılar arasında fikir ayrılığı var. Bəzilərinə görə, suya baş vurmaq və ya başını suya salmaq bəyənilməyən, bəzilərinə görə isə qadağandır. Unutqanlıq üzündən olduqda isə oruc pozulmur.

Orucluq vaxtı habelə, şam namazından sonra cinsi yaxınlıqda olanlar və ya yuxuda cünub olan şəxslər sübh namazına qədər qüsl alıb oruc tutmalıdırlar. İstər xəstəlik üzündən, istərsə də adi halda insan oruclu ikən bilərəkdən qusmaqla da orucunu pozmuş olur. Bundan başqa, qidalandırıcı iynələr, diş çəkdirmək, qan aldırmaq orucu pozur. Qeyri-ixtiyari və ya unutqanlıq üzündən qusduqda isə oruc pozulmur.

Qeyd edək ki, Hicri-Qəməri təqvimə əsasən, ayın görünməsindən asılı olaraq Ramazan ayı 29 və ya 30 gün davam edə bilər. Yuxarıda da əlavə etdiyimiz kimi, QMİ artıq iyunun 15-də Ramazan ayının başa çatdığı Fitr bayramının gününü elan edib. Oruc tutan müsəlmanlar sonuncu Ramazan axşamında qeyd olunan məbləğdə fitrə zəkatı çıxıb onu kasıb, ehtiyaclı insanlara bağışlamalıdır. Bundan başqa, Ramazan ayının 19, 21 və 23-cü, eləcə də 27-ci gecələri Qədr gecələri, yəni Quran-Kərimin nazil olduğu gecələr kimi qeyd olunur. Quran-Kərimin 97-ci surəsi olan Qədr surəsi bu münasibətlə nazil olunub. Qədr gecəsi Quranın nazil olduğu, xeyir və bərəkətli gecə kimi təsvir olunur. "O gecə dan yeri sökülənə kimi (büsbütün) salamatlıqdır! (əmin-amanlıqdır) (Qədr gecəsi heç bir bəla nazil olmaz, o, bütünlüklə xeyir-bərəkətdən ibarətdir. O gecə mələklər yer üzündə gəzib Allahın müxlis bəndələrinə salam verərlər. Buna görə də Qədr gecəsi səhərə qədər oyaq qalıb ibadət etmək lazımdır!) (Qədr surəsi, 5-ci ayə).

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Boşanmalar parlamentin komitə iclasında müzakirə edildi



## Xanım deputat: "İlk gündən döyülmüsənsə, söyülmüsənsə, niyə üç uşaq dünyaya gətirmisən?"

**Mayın 15-də Milli Məclisin Ailə, qadın və uşaq komitəsinin iclasında yeni hazırlanan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsi müzakirə olunub. Müzakirələrin gedişi zamanı deputatlar bir sıra aktual məsələlərdən də bəhs ediblər. Xüsusilə də yeniyetmələrin intiharı, boşanma hallarının artması kimi məsələlərdən danışılıb.**

Ailə, qadın və uşaq komitəsinin sədri Aqiyə Naxçıvanlı boşanmalardan danışıb. Həmçinin o, "ölüm cəza"sını yenidən gündəmə gətirib. "Hazırda boşananların sayı artıb. Rahatlıqda boşanırlar, ailə dağılır. Çünki ictimai qınaq yoxdur"- A.Naxçıvanlı deyib. "Toydan iki ay öncə rəqsə gedirlər. Rəqsə getməkdənsə, ağsaqqalın, ağbirçəyin yanına getsinlər, ailə necə olur, onu öyrənsinlər. Ailələrdə dözümlülük yoxdur"-deyən, komitə sədri qeyd edib ki, milli-mənəvi dəyərləri qorumaq lazımdır (gununsesi.info.). Onun sözlərinə görə, burada təhsilin də rolu var: "Qadınlar komitəyə müraciət edirlər, dinləyəndə, görürsən ki, bunun savadı yoxdur. Sual verirsən ki, necə ailə qurmusan? Deyir, valideynlərin razılığı ilə olub. Deyirəm, bəs ailə qurduğun şəxs qonşun olubsa, əvvəlcədən onun necə birisi olduğunu bilmirdin? Ailə qurmaq, sonradan dağıtmaq o qədər sadələşib ki... Deyirəm ki, ilk gündən döyülmüsənsə, söyülmüsənsə, niyə üç uşaq dünyaya gətirmisən? Deyir ki, uşaqları siz götürün saxlayın. Uşaqlara dövlətin baxmasını tələb edir. Dövlət sifariş vermişdi ki, üç uşaq dünyaya gətirəsən? Əvvəllər belə şeylər olmayıb, müharibə dövründə 18-19 yaşında dul qadınlarımız olub, uşaqlarını təkbaşına böyüdüblər, heç yenidən ailə qurmaq haqqında düşünməyiblər. İndi bəs nə baş verir?"

**Komitə sədri uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması üçün tədbir görülməsinin vacibliyini vurğulayıb:** "Zorakılığın qurbanı olan uşaqları görəndə dəhşətə gəlirik. Bilmirsən, yeməkdəndir, içməkdəndir, yoxsa tərbiyədən? Belə vəhşiliklərin qarşısı alınmalıdır. Uşaq sığınacağına getmişdik, orada gördüklərimizdən bir həftə özümüzə gələ bilmədik. Beş yaşında uşağın zorakılığa məruz qalması dəhşətdir. Bunu edən insana həbs cəzası yetərmi? Əlbəttə ki, yox, elələrinə ölüm cəzası verilməlidir".

A.Naxçıvanlı yeni hazırlanan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsi haqqında da məlumat verib. O bildirib ki, qanun layihəsi Milli Məclisə prezident İlham Əliyevin imzası ilə daxil olub. Komitə sədri qeyd edib ki, sənədlə Azərbaycanda uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın növləri müəyyənləşib. O deyib ki, parlament layihəni qəbul edərsə, 2020-ci il yanvarın 1-də qüvvəyə minəcək, çünki bu qanun tam işlək hala gətirilməlidir. Qanun layihəsinin 4-cü (Uşaqlar üçün zərərli informasiyanın növləri) maddəsinə əsasən, uşaqlar üçün zərərli informasiyaya aid olanlar konkret olaraq göstərilib. Buraya zorakılığı və qəddarlığı təbliğ edən informasiya, cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri, o cümlədən cinayətləri təbliğ edən informasiya, uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən informasiya, ailə institutunu nüfuzdan salan informasiya, əxlaqdan kənar leksik (söyüş) məzmunlu informasiya, pornoqrafik xarakterli informasiya, zorakılığı və qəddarlığı nümayiş edən informasiya, qeyri-məişət leksik (jarqon) məzmunlu informasiya, qorxu məzmunlu informasiya, erotik məzmunlu informasiya və s. aiddir. Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir. Qanunda digər məqamlar da öz əksini tapıb.

**Müzakirələrdən sonra qanun layihəsi parlamentin plenar iclasına tövsiyə olunub.**

❑ **Cavid TURAN, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018

# Qəbul imtahanları sonrası yeniyetmələrlə necə davranmalı...

## Abituriyentlərin intiharında valideynlər günahkardır, ya təhsil sistemi?

**Mayın 13-də keçirilən qəbul imtahanlarından sonra ölkədə abituriyent intiharı mövzusu gündəmə gəldi. Çünki iki abituriyentin imtahandan əldə etdiyi nəticələrə görə stresə girərək, özünə qəsd etməsi ölkəni silkələyib. Bundan önəki qəbul imtahanları zamanı da eyni hal yaşanmışdı. Bəli, qəbul imtahanları həm də can alır. Ali təhsil almaq istəyindən daha çox, valideyn basqısı, cəmiyyətin göstərdiyi təpki uşaqlarda ciddi stress yaradır.**



Sonuncu qəbul imtahanından sonra intihar edən 2001-ci il təvəllüdlü Pənah Quliyev evin tək uşağı olub. Atası Mərkəz Quliyev aprelin 17-də qəza nəticəsində vəfat edib. İmtahan öncəsi bu hadisə də Pənaha mənfi təsir edib. P. Quliyevin ailəsi Qubadlı rayonundan məcburi köçkün düşüb. Özü də Sumqayıtda yerləşən Qubadlı-Saray məktəbində təhsil alıb. 37 yaşlı anası isə həmin məktəbdə ibtidai sinif müəllimi işləyib.

Bu il yanvarın 20-də 17 yaşı tamam olan Pənah marketinq-menecer ixtisasına sahiblənmək arzusunda olub. Bunu "Qafqazinfo"ya müsahibəsində Pənahın dayısı Nurlan Bayramov deyib.

**Sitat:** "İmtahandan əvvəl də onunla danışmışdıq, mən özüm də birinci dəfə imtahandan kəsildiyimi, sonra kollecə daxil olduğumu və ailə qurandan sonra tam ali təhsil aldığımı ona demişdim. Pənah imtahandan çıxanda özü dedi ki, "yaxşı yazmışam, inşallah qəbul olaram". Sonra birlikdə evə gəldik, müəllimləri testi yoxladı, təxminən 200-210 bal toplamışdı. Amma onun istədiyi fakültəyə bal 400-dən yuxarı olmalıdı. Biz də dedik eybi yox, gələn dəfə girərsən. Özü də gülüb dedi "əşşi girməmişəm, girməmişəm də". Amma ola bilər həm atasına görə, həm öz istədiyi fakültəyə düşmədiyi üçün stress keçirib".

**N. Bayramov bildirib ki, hadisə gecə saat 12-nin yarısında baş verib:** "Evdə anası yatmış olub, özü də intihar etmədən əvvəl anasına məktub yazıb. Orada "Evlərin hamısını anama verirəm, əgər qalsa. Özünə yeni həyat qur, mənə görə də özünə heç nə etmə. Eləsən haqqımı halal eləmirəm", - yazıb. Pənah çox özünə qapalı uşaq idi, evdə heç nə danışmazdı. Məktəbdə kiminləsə mübahisə edəndə biz 2-3 ay sonra başqa yerdən eşidirdik".

**Sumqayıt şəhərində 17 yaşlı Faiq Rüstəmov isə özünü 14-cü mərtəbədən atıb və hadisə yerindəcə vəfat edib. İntihar edən yeniyetmə özünəqəsddən bir gün öncə qəbul imtahanında iştirak edib və ilkin məlumata görə, az bal topladığı üçün intihar edib. Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda araşdırma aparılır. Faiq Rüstəmov Tağıyev qəsəbəsindəki 32 saylı məktəbdə təhsil alıb. Məktəbin müəllimi Kərim Kərimovun sözlərinə görə, hələ də Faiqin intihar etməsi xəbərinə inana bilmir:** "Gözəl bir ailənin uşağı idi. Çox tərbiyəli, fərasətli uşaq olub. Güclü yaddaşı vardı. Sakit uşaq kimi xatırlayıram. Tərbiyəsinə söz ola bilməzdi. Niyə belə edib, bilmirəm. Dərslərini də çox yaxşı oxuyurdu".

**Bina sakinləri bildirir ki, burada baş verən ilk intihar hadisəsi deyil. Daha dəqiq desək, son beş ayda 3-4 intihar hadisəsi baş verib. Sakinlər deyir ki, bundan sonra 9 nömrəli binada intihar halları qaçılmazdır. Çünki binanın damına çıxış qıfıllanmır. Satıcı ilə söhbətləşirik, deyir ki, iki həftə əvvəl də burada intihar hadisəsi olub. Həmin şəxs də Faiqin intihar etdiyi yerdən özünü atıb:**

"Bizim binanın liftləri işləmir. Ona görə də insanlar digər bloklara çıxmaq üçün gəlib buradan 14-cü mərtəbənin damına çıxırlar. Bəziləri isə şəhər yaxşı göründüyü üçün buraya çıxır. Şəkillər çəkdirirlər. Əsasən də yeniyetmələr... Dəfələrlə "JEK"-ə müraciət etmişik. Demişik ki, gəlin girişi bağlayın. Amma bir tədbir görməyiblər".

### İntihar edəcək uşağı necə müəyyənləşdirməli?

Yaxşı, bəs bu intihar olaylarının qarşısını necə almaq olar? Ümumiyyətlə, çıxış yolu nədədir? Psixiatr və uşaq psixiatriyası sahəsində çalışan həkimlərin qarşılaşdığı ən sarsıdıcı durumların başında gələn intihar Amerikada gənclər arasında motorlu nəqliyyat qəzaları və cinayətlərdən sonra başlıca ölüm səbəbidir. Ölkəmizdə də buna bənzər bir durum var.

İntihar depressiya adını verdiyimiz ruhi pozğunluqdan ayrı deyil. Depressiya müxtəlif mexanizmlərlə ortaya çıxan, ərgənlik və gənclik dönəmində başlayan, ciddi və öldürücü ola bilən bir ruhi xəstəlikdir. Uşaqlar və gənclərdə depressiyanın tipik əlamətləri, əsəb və qəzəb, davranış problemləri, ümidsizlik, daxilə qapanma kimi durumları özündə ehtiva edir və üstəlik, sürəkli şəkildə dəyişir.

Bu məqamda ailənin üzərinə düşən vəzifə isə ciddi önəm daşıyır. Belə ki, ümidli, uşaqların və gənclərin özlərini etibarlı hiss etdikləri, anlaşıldıqlarını düşündükləri bir yaşam atmosferi yaratmaq... Bu atmosfer ən ağır şərtlərdə belə yaradıla bilər. Ümidsizlik və pessimizm isə yoluxucudur. Yoluxduğu yerdə genetik-fizioloji detallarla birləşdiyi zaman öldürücü bir xəstəlik ola bilər. Bir uşaq rahatlıqla danışa biləcəyi, onu diqqətlə dinləyəcək bir başqasına ehtiyac duyar. Belə biri həyatında varsa, depressiya riski azalır.

### Kimlər yüksək risk altındadılar?

Depressiya başlı-başına bir risk deməkdir. Amma depressiya zamanında və ya oncəsində bəzi məqamların baş verməsi riski yüksəldir. Müalicə forması və seansların sayı da ona görə müəyyənləşdirilir. İntihar cəhdindən və ya ölümdən danışan bir uşaq və ya gəncin intihara cəhd etmə ehtimalını artıran məqamlar risk faktoru olaraq qiymətləndirilir.

Ölmə arzusunu dilə gətirmək, ayrılıq hazırlıqları, vida məktubları, əşyalarını hədiyyə etmə... Depressiya dönəminin içərisində ikən sürətlə "yaxşılaşma", əhvalın yerinə gəlməsi, aşırı sevinc hissləri, səhhətini və təhlükəsizliyini heçə sayaraq edilən hərəkətlər, qəza və riskli davranışlardakı artım da bura aiddir.

Əsasən uğura fokuslanmış şəkildə yetişdirilən proje uşaqları var. Bu uşaqlarda "Uğur qazansam, yaxşı bir insanam, qazanmasam pis insanam" yanaşması var. Onlar yaşam fəlsəfəsini uğura görə qurublar. Uğur hədəfinə görə yüksək motivasiya ilə yetişdirilirlər.

Psixoloqlar ailələrlə danışdıqları zaman sonuncular "Biz uşaqlarımıza təzyiq göstərmirik" deyirlər. Bu uşaqlara əslində təzyiq göstərməyə də ehtiyac yoxdur. Öz daxili dünyalarında təzyiq yaradırlar. Yüksək motivasiya ilə yetişdirildikləri üçün "ən yaxşı mən olmalıyam" hədəfi ilə həyatlarını sürdürürlər. Uğursuz olma ehtimalına qarşı isə "yaşam səbəbim ortadan qalxdı" düşüncəsi ilə yaşamına son verə bilərlər.

Sosiallıq bu kimi uşaqların diqqət mərkəzlərində daha geri planda qalır. Tək hədəfləri və maraq dairələri uğur olur. Böyük bir ruh sağlamlığı problemləri olmadığı halda əsasən uğurlu və təhsilli ailələrin uşaqlarında bu durumlarla rastlaşmaq mümkündür. Bundan başqa, uşaqda və ya ailəsində depressiya, duyğu durum pozğunluğu kimi psixiatrik narahatlıqlar da ola bilər. Belə bir problem uşağın uğur gözləntisi ilə birləşibsə, bu halda xəstəlik tətiklənə və nəticə intihar ola bilər.

Psixoloqlar bildirir ki, usağı, sadəcə, uğura indeksli şəkildə yox, xoşbəxtliyə indeksli yetişdirmək lazımdır. Uşaq son həftələrdə içinə qapanıb, yoxsa otağından çıxmır? Pərdələri də bağlı saxlayırmı? Dost münasibətlərindən qaçış özünü göstərir? Bütün bunlar intiharın xəbərçisidir və gözardı etməmək lazımdır.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

## Elan

**Kəlbəcər rayon Ağcakənd kəndində daimi qeydiyyatda olan 1972-ci il təvəllüdlü Mustafayev Mobil Əkbər oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız hesab edilir.**

***

**Ağdaş şəhəri Dəhnə-Xəlil kənd sakini İsayev Abdhəlim Allahverdi oğlunun adına olah JN № 40 saylı aktı itdiyi üçün etibarsız sayılır.**

# Dövlət İmtahan Mərkəzi medianı qınadı

## "Bəzi media qurumları kontekstdən çıxarılmış statistik göstəriciləri təqdim edir"

**Bu günlərdə Dövlət İmtahan Mərkəzi tərəfindən 2017-ci ildə tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlilinin əks olunduğu "Abituriyent" jurnalının 12 nömrəli buraxılışı nəşr olunub.**




Bu barədə Dövlət İmtahan Mərkəzindən modern.az-a məlumat verilib. Bildirilib ki, bu günlərdə Dövlət İmtahan Mərkəzi tərəfindən 2017-ci ildə tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlilinin əks olunduğu "Abituriyent" jurnalının 12 nömrəli buraxılışı nəşr olunub. Dövlət İmtahan Mərkəzi daim bu sahədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasına, qəbul prosesinin şəffaflığının təmin edilməsinə, təhsil ictimaiyyətinin bu prosesinin idarə olunmasında iştirakına, bu sahəyə ictimai nəzarətin təşkilinə böyük önəm verib.

"20 ildən artıqdır ki, çoxsaylı mütəxəssislərin gərgin əməyi sayəsində tələbə qəbulunun nəticələrinin elmi-statistik təhlili aparılır, təklif və tövsiyələr bildirilir. Təhlil elmi-statistik xarakter daşıdığından burada müzakirə obyekti daha çox aydın müqayisəli nəticələrə əsaslanmalı, konteksdən çıxarılmış statistikaya söykənməməlidir. Nəticələr ilk növbədə mütəxəssislər tərəfindən elmi müstəvidə müzakirə olunmalıdır"-DİM bildirib.

Qeyd edilib ki, elmi-statistik tərəfdən bu təhlilə diqqətlə baxdıqda istər buraxılış, istərsə də qəbul imtahanlarında son 5 il ərzində davamlı müsbət dinamika müşahidə olunduğunu görmək olar: "Bunun üçün sadəcə olaraq əvvəlki illərlə müqayisədə təhlilə diqqətlə baxmaq kifayətdir. Təəssüflə qeyd etmək istəyirik ki, bir çox hallarda bəzi media qurumları kontekstdən çıxarılmış statistik göstəriciləri təqdim edir, bununla da cəmiyyətdə yanlış təsəvvür, ajiotaj yaratmağa çalışırlar. Bir daha Dövlət İmtahan Mərkəzi olaraq media qurumlarından xahiş edirik ki, tələbə qəbulunun nəticələrinin elmi-statistik təhlilinə peşəkar media güzgüsündə baxsınlar".

YENİ MÜSAVAT
N 106 (6995) 16 may 2018

**Dünya neft bazarında qiymətlərin üzüyuxarı hərəkəti davam edir. Bu bazarda qiymətlər artıq 79 dolları keçməkdədir.**



# Neftin qiymətini dünyadakı münaqişə ocaqları diktə edir

## İlham Şaban: "Azərbaycan doğru yol tutub"

Əksər müşahidəçilər son artım dalğasının ABŞ-ın İrana qarşı gücləndirilmiş sanksiyaların tətbiqi, həmçinin Yaxın Şərqdəki münaqişələrlə bağlı olduğunu bildirirlər. Qiymətlərin hərəkətinin bundan sonra hansı istiqamətə dəyişəcəyi isə hamını maraqlandırır.

**Neft sahəsi üzrə mütəxəssis, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban hesab edir ki, mövcud şəraitdə neft qiymətləri ilə bağlı proqnozlaşdırma aparmaq çox çətindir:** "Neftin qiymətinin 2014-cü ilin noyabrındakı səviyyəyə çatması birbaşa Yaxın Şərqdəki münaqişə ilə bağlıdır. Xüsusilə dünənki qiymət sıçrayışı bazarın Qüdslə bağlı yaranan böhran, insan ölümləri, İran, Türkiyə kimi dövlətlərin kəskin etirazlarından irəli gələn reaksiyasıdır. Bu hadisələr regiondakı gərginliyin yumşalma deyil, daha da kəskinləşmə istiqamətində artdığını göstərir. Neçə ki, regionda vəziyyət gərgindir, bu gərginlik neftin qiymətində özünü büruzə verməkdə davam edəcək. Nəticə etibarilə neftin qiymətlərinin geopolitik amillər nəticəsində qızışdırılması onun real bazar dəyərindən yüksək olmasına gətirib çıxarıb. Təsadüfi deyil ki, Rusiyanın energetika naziri Novak da deyib ki, geosiyasi amillər neftin qiymətində elə dərəcədə kök salıb ki, onunla bağlı proqnoz vermək çox çətindir. Doğrudan da qısa bir müddətdə yaranan münaqişə səngiyir, qiymət azalır, dərhal da yeni münaqişə ocağı formalaşır və qiymətlər yenidən alovlanır. Məsələn, yaxın müddətədək Asiyada - Şimali və Cənubi Koreya arasında böhran yaşanırdı, heç kimin gözləmədiyi halda çözüldü, hadisələr səngidi. Lakin az keçmədi ki, Yaxın Şərqdə hadisələr kəskinləşdi, İrana qarşı sanksiyalar məsələsi gəldi gündəmə. Buna görə də qiymətlərdə volatillik çox yüksəkdir. Hər an müəyyən hadisələr baş verə bilir deyə proqnoz vermək çətindir. Bu baxımdan, indi durub demək ki, 1-2 həftədən, 1 aydan sonra neftin qiyməti 100 dollara yaxınlaşacaq, yaxud azalıb 70 dollar civarında hərəkət edəcək - bu, çox çətin məsələdir. Bilinmir ki, bir həftə ərzində dünyada yeni bir münaqişə ocağı yaranacaqmı-yaranmayacaqmı. Məsələn, dünənədək Qüdsdə elə qanlı hadisələrin yaşanacağı gözlənilmirdi".



**Mərkəz rəhbərinin dediyinə görə, ABŞ-ın İrana qarşı sanksiyalarının real qüvvəyə minməsi xeyli müddət aparacaq:** "Sanksiyalar imzalandı, düzdür. Amma onlar imzalanan kimi tətbiq olunmur. Azı 5-6 ay şirkətlərə, ölkələrə vaxt verilir ki, İranla münasibətləri, bağlanmış müqavilələri tənzimləsinlər. Bu baxımdan, sanksiyaların İranın neft hasilatına təsiri 2019-cu ilin əvvəlindən başlaya bilər. Bundan əlavə, Avropa Birliyi də ABŞ-ın Rusiyaya qarşı sanksiyalarına qoşulub. Bu gün (dünən - red.) birliyin qərarı mətbuatda açıqlanmalıdır. Bütün bunlar göstərir ki, neftin gələnilki qiymətləri əvvəlcədən proqnozlaşdırılan səviyyədən yüksək olacaq. Belə ki, analitik mərkəzlər gələn il neftin qiymətinin builkindən 2 dollar aşağı olacağını proqnozlaşdırırdılar. Hesab olunurdu ki, təklifin artması sayəsində qiymətlər aşağı düşəcək. Lakin belə görünür ki, bu proqnoz özünü doğrultmayacaq. İranın hasilatındakı azalma təklifin artmasına imkan verməyəcək, qiymətlər isə builkindən də yüksək olacaq. Ötən il neftin orta qiyməti 54 dollar olub, bu ilin 4 ayında 72 dollardır. İlin ikinci yarısında qiymətlər düşsə belə, orta qiymət 68-70 dollar civarında olacaq. Bu, kifayət qədər böyük bir rəqəmdir. Ötən illə müqayisədə 30 faiz, 2014-cü illə müqayisədə isə 64-65 faiz artım deməkdir".

**Bu cür əlverişli qiymətlər şəraitində Azərbaycanın neft hasilatını artırmaq potensialı varmı? İ.Şaban bildirir ki, hasilat artırılır:** "Azərbaycan hökumətinin proqnozu beləydi ki, ötən ilə nisbətən bu il hasilat təxminən 1 milyon ton azalmalıydı. Lakin 4 ayın yekunları ondan xəbər verir ki, bu azalma baş verməyəcək. Ölkə üzrə hasilat stabildir. Baxın, Azərbaycanda qaz hasilatı artsa da, əmtəəlik qazın miqdarı 10 faiz azdır. Bu o deməkdir ki, hasil olunan qazı neft quyularına vurmaqla daha çox neft çıxarılmasına nail olunur. Bu, qazı satmaqdan daha gəlirli yoldur. Yəni 1 milyon ton neft təxminən 7 milyon barel deməkdir. Bu qədər neftdən əldə olunan gəlir qazı satsaydıq əldə olunacaq gəlirdən qat-qat yüksəkdir. Bu gəlirlə xaricdən qaz alıb öhdəliklərin icrasına yönəltmək, həmçinin Neft Fonduna daha çox həcmdə vəsait toplamaq mümkündür. Hansı ki, hökumət də elə bunu edir. Ötən il Azərbaycan neft satışından 6,3 milyard dollara yaxın mənfəət əldə edib - bu, Neft Fonduna daxilolmalardır. Bu il isə belə görünür ki, 8,4-8,5 milyard dollar gəlir əldə olunacaq. Ola bilsin hətta 9 milyarda da çatsın".

**Onu da qeyd edək ki, İranla Azərbaycan arasında Xəzər dənizindəki neft yataqlarının birgə işlənməsinə dair memorandum imzalanıb. İrana qarşı sanksiyaların yenidən gündəmə gətirildiyi bir dövrdə Azərbaycan cənub qonşusu ilə neft hasilatı sahəsində əməkdaşlıq edə biləcəkmi? Mütəxəssis deyir ki, İran hökuməti uzun illər sanksiyalar altında yaşamaqla, Qərbi qıcıqlandıran açıqlamalar vermək kimi vərdişlərə yiyələnib:** "İran bu kimi açıqlamalar siyasətindən daim istifadə edib Qərbə göstərmək istəyir ki, sanksiyalar onun qonşularla, digər dövlətlərlə münasibətlərinə təsir göstərmir. Digər tərəfdən, ortada olan yalnız iki ölkənin energetika nazirinin imzaladığı memorandumdur - tərəflərə heç bir hüquqi öhdəlik yaratmayan, heç bir yatağın adı çəkilməyən bir sənəd. Real işə başlamaq üçün o sənədin ardınca bir sıra addımlar atılmalıdır. Hansı ki, hələ hansısa belə addım atılmayıb. Bu baxımdan, heç bir öhdəlik olmadığı bir şəraitdə İrana qarşı sanksiyalar Azərbaycan üçün təhlükə yaratmır. Ona qalsa, İranın Rusiya ilə də Xəzərdəki 4 yatağın birgə işlənməsinə dair ötən ildən memorandum imzalanıb, amma ortada heç bir real iş yoxdur"...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Acemoğlu Ermənistanı dalandan çıxara bilərmi?

## Erməni lider dünya şöhrətli iqtisadçı Daron Acemoğlunu özünün iqtisadi məsələlər üzrə müşaviri vəzifəsinə dəvət edib

**Ermənistanda yeni hökumətin formalaşdırılması yekunlaşıb. Baş nazir Nikol Paşinyan kifayət qədər gənc bir komanda toplayıb. Kabinetin yaş ortalaması 40-dır. Ən yaşlı nazirin 52 yaşı var: xarici işlər naziri Zöhrab Mnatsakanyan. Ən gənc nazir 27 yaşındadır: diaspora naziri Mxitar Ayrapetyan.**

Diqqəti çəkən daha bir məqam odur ki, Paşinyan dünya şöhrətli iqtisadçı Daron Acemoğlunu Ermənistana, baş nazirin iqtisadi məsələlər üzrə müşaviri vəzifəsinə dəvət edib. Daron Acemoğlu Türkiyədə doğulmuş və Galatasaray liseyini bitirmiş ermənidir, GS klubunun üzvüdür. Hazırda ABŞ-da dünyanın ən məşhur universitetlərindən olan MIT-in professorudur. Siyasi təhlilçilər Acemoğlunu kifayət qədər mötədil mövqeli insan kimi xarakterizə edirlər, onun Türkiyəyə və Azərbaycana qarşı hər hansı radikal fikrinə rast gəlinmir. Türkiyəyə tez-tez gedir, konfranslarda iştirak edir, hökumətə tövsiyələr verir.

Acemoğlu Paşinyanın təklifini müsbət qarşılayıb və Ermənistanın iqtisadi inkişafına kömək edəcəyini deyib.

N.Paşinyanın bir tərəfdən Azərbaycana və Türkiyəyə qarşı sərt bəyanatlar verib, o bir tərəfdən Türkiyə vətəndaşı olan və Türkiyəyə, Azərbaycana sərt mövqeyi olmayan ermənini özünə müşavir gətirməsi paradoks sayıla bilərmi?



**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, Nikol Paşinyan ölkə iqtisadiyyatını və sosial durumu normallaşdırmaq istəyir. Elə bunun üçün Türkiyə doğumlu erməni Daron Acemoğlunu özünə iqtisadi müşavir təyin edib. Görünür, bu təyinatla Paşinyanın bir neçə məqsədi var. Birinci məqsədi odur ki, Daron Acemoğlu Amerikada tanınmış iqtisadçıdır, Paşinyan belə bir şəxsi müşavir təyin etməklə Amerikadan kredit alacağına ümid edir. İkincisi, Paşinyan keçmiş Türkiyə vətəndaşıdır, ilk ali təhsilini bu ölkədə alıb. Paşinyan Türkiyənin keçmiş vətəndaşını müşavir təyin etməklə Ankara ilə yeni dialoq imkanlarını da nəzərdən keçirir. Üçüncüsü, Paşinyan Acemoğluna ümidlidir ki, o, iqtisadiyyatı düzəldəcək: "Problem ondadır ki, Paşinyan Daron Acemoğlunun təyinatı vasitəsilə hədəflədiklərinin heç birinə nail olmaya da bilər. Ermənistan Rusiyadan ayrıla bilmir. Bunu Nikol Paşinyanın Soçidə Rusiya prezidenti Vladimir Putinlə görüşü də sübut etdi. Buna görə də ABŞ Ermənistana çətin yardım ayıra. Türkiyə erməni mənşəli keçmiş vətəndaşına görə Ermənistanla dialoqa başlamaz. Daron Acemoğlunun öz qabiliyyətinə güvənərək Ermənistan iqtisadiyyatını düzəldəcəyi də problematikdir. Çünki bunun üçün təkcə qabiliyyətin olması yetərli deyil. Ermənistanın əlavə resurslara ehtiyacı var. Bu təyinat mənə 1990-cı illərdə Amerikadan Türkiyəyə gətizdirilən Kamal Dərviş olayına bənzəyir. Həmin illərdə Türkiyə iqtisadiyyatı ağır vəziyyətdə idi, keçmiş baş nazir Bülənt Ecevit Amerikada yaşayan və çalışan məşhur iqtisadçı həmyerlisi Kamal Dərvişi vətəninə çağıraraq iqtisadiyyatı ona tapşırdı. Ancaq Dərviş də bir şey edə bilmədi. Bülənt Ecevit xatirələrində yazırdı ki, onun ən böyük yanlışlıqlarından biri Dərvişi Türkiyəyə dəvət etməsiydi. Çünki Dərviş iqtisadiyyatda bir şey edə bilmədikdə hökumət içində ixtilafı dərinləşdirməyə başladı. Düşünürəm ki, Daron Acemoğlu olayı Kamal Dərviş olayına çox bənzəyir. Daron Acemoğlu iqtisadiyyatda uğur qazanmadıqda bunun günahını onu bu vəzifəyə dəvət edən Nikol Paşinyanın siyasətində axtaracaq".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 106 (6995) 16 may 2018

# Bunlar kişiləri xoşbaxt edən hərəkətlərdir

Psixoloqlar araşdırıblar və müəyyənləşdiriblər ki, kişiləri xoşbəxt edəcək dörd sirli hərəkət var. Bunlardan birincisi onlara cazibədar olduqlarını deməkdir. İkincisi səssizlikdir. Bəzi kişilər səssizdir. Bu, onların qəmgin olduğunu göstərmir. Əksinə, xoşbəxt olduqları zaman susurlar. Qadının da səssizliyi münasibətlərdəki etibar hissini artıra bilər. Üçüncü sirr isə tövsiyələrlə bağlıdır. Belə ki, kişilər sevdikləri qadının onlara hansısa problemlə bağlı müraciət edib, məsləhət almalarını arzulayır. Bu halda kişi özünü çox vacib, mühüm şəxs hesab edir. Dördüncüsü və ən vacibi isə... qadınların makiyajdan istifadəsini müşahidə etməkdir. Düzdür, kişilər bu prosesi işgəncə hesab edir, amma onu izləməkdən zövq alırlar. Ona görə də makiyajdan istifadə edərkən qadınların qapını açıq qoyub, kişilərin onlara baxması üçün şərait yaratması arzuediləndir.





## Amerikalı göbələk yığmağa getdi, ikibaşlı maral balası tapdı

Amerikanın Minnesot ştatı sakini meşəyə göbələk yığmağa getdi və orada ikibaşlı maral balası tapdı. Bu haqda lenta.ru saytı xəbər verib. Kişi bu tapıntısı barədə meşə rəhbərliyinə məlumat verdi və heyvan ştatın təbii resurslar nazirliyinə təqdim edildi. Burada isə onu gələcək araşdırmalar üçün dondurdular. Araşdırmalar isə göstərdi ki, heyvanın boynu cütləşib və oradan iki baş çıxıb. Heyvan ölü doğulub. Onun daxili orqanları sona qədər formalaşmayıb. Maral balasının iki həzm sistemi olsa da, onlardan ancaq biri tam qaydada formalaşıb. Bundan başqa, iki ürəyi, bir böyrəyi olub.

Corciya Universitetindən olan, maral araşdırmaçısı, zooloq Cino Danceli qeyd edib ki, bu anomaliya olduqca nadir sayılır. Onun sözlərinə görə, bu vaxta qədər siam əkizləri olan maralları müşahidə etməyib. Analoji anomaliya zaman-zaman ev heyvanlarında və ya vəhşi təbiət nümayəndələrində müşahidə olunur. Elmi ədəbiyyatda isə vəhşi heyvanlarla bağlı 19 mutasiya halı özünü göstərib. Onlardan beşi marallar olub.

## Uşaq şalvarını geyinə bilmədiyi üçün hakimə getdi

Amerikanın Cənubi Karolina ştatında 2 yaşlı uşaq polisə zəng edərək, ilginc bir xahiş edib. Lenta.ru saytının xəbərinə görə, uşaq şalvarını geyinə bilmədiyi üçün polisdən yardım istəyib. 2 yaşlı Aliyanın zənginə cavab verən polis əməkdaşı Marta Lones bildirib ki, dəstəyin o biri ucundakı səs sahibinin uşaq olduğu hiss edilsə də, baş vermiş problemin nədən ibarət olduğunu aydınlaşdırmaq üçün uşağın evinə polislər göndərilib: "Bizim polislər evə çatanda isə şalvarını yarı geyinmiş halda olan bir balaca qız sevincək qapını açıb və "salam" deyib. Sonra da bildirib ki, əsas problem şalvarını geyinə bilməməsi idi və buna görə yardım istəyib".

Hadisə yerində olan qadın polis isə iki uşaq anası olaraq bu məsələlərdə çox təcrübəli olduğu üçün Aliyanı dərhal geyindirib. Uşağın anası Pebls Ryan deyib ki, qızına hər hansı problem qarşısında polisə zəng etməyi özü tapşırıb. Amma qızcığaz şalvar geyinə bilməməyin problem olduğuna özü qərar verib. Uşaq isə evdə tək olmayıb.





## Balıqçı balıq tutmaq istədi, balıq ağzına hoppandı...

Hindistanda həkimlər ağzına balıq hoppanan balıqçının həyatını xilas ediblər. Bu barədə "Daily Mirror" qəzeti xəbər verib. Hindistanın Orissa ştatının sakini çaydan 10 santimetr uzunluğunda balıq tutsa da, onu əlində saxlaya bilməyib. Balıq cəld bir şəkildə kişinin ağzına sıçrayıb və onun boğazında ilişib. Balıqçı nə qədər cəhd etsə də, balığı boğazından çıxara bilməyib. Balıq onun danışmasına və nəfəs almasına mane olub. Zərərçəkmiş balıqçını dərhal yaxınlıqdakı xəstəxanaya aparıblar. Amma yerli həkimlər ona kömək edə bilməyiblər. Ona görə də balıqçını ştatın paytaxtına - Bxubaneşvar şəhərinə aparıblar. Həkimlərdən birinin dediyinə görə, xəstənin boğazından balığın quyruğunu çıxara biliblər. Əməliyyat zamanı zərərçəkmişə ağrıkəsici veriblər. Yalnız bundan sonra onun boğazında kiçik əməliyyat edə biliblər. Balıqçının boğazına atılan tikişlərin 10 gün müddəti olub. Bu müddət ərzində kişi burnundan salınan zond vasitəsilə qidalanmağa çalışıb.




QOÇ - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, xüsusən də baş nahiyənizə ciddi fikir verməlisiniz. Digər işləri təxirə salmaq da olar.

BUĞA - Ümumi əhvalınızda xoş məqamlar bol olacaq. Ələlxüsus da saat 15-dən sonra bəzi cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı sevgiyə həsr edin. Ulduzlar uzaq səfərə çıxmanızın əleyhinədir.

ƏKİZLƏR - Qarşınızda uğurlu bir gün durur. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Nahardan sonra uzaq yola çıxmaq olar.

XƏRÇƏNG - Xırda-para işlər başınızı qatsa da, şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin, ağır fiziki işlərdən yayınmağa çalışın.

ŞİR - İxtiyarınızda olan bu təqvimdə ətrafdakılarla mülayim olmağa üstünlük verin. Əgər ruhən sizə yaxın olan insanlara baş çəksəniz, böyük savab qazanmış olarsınız. Bütün hallarda bu gün bədbin düşüncələrdən azad olun.

QIZ - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Bu səbəbdən də yalnız özünüzə aid işlərlə məşğul olun.

TƏRƏZİ - Planetiniz Veneranın "hakimiyyətdə" olması sizi daha enerjili edəcək. Amma səhhətlə bağlı problemlərinizi həll etməlisiniz. Çünki bu amil vacib planlarınızı poza bilər. Görüşləri axşama salın.

ƏQRƏB - Saat 14-ə qədər neytrallıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir. Riskdən qorxmayın.

OXATAN - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqlardan sevindirici xəbər də alasınız. Hər halda, gün ərzində ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə ehtiyatlı olmalısınız.

OĞLAQ - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Əgər təşəbbüskarlığı əlinizdə saxlasanız, hədəfə mütləq çatacaqsınız.

SUTÖKƏN - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Ruhi tarazlığınızı bərpa etmək üçün ziyarətgahlara baş çəkmək olar.

BALIQLAR - Bütün vacib işlərinizi günün birinci yarısında yekunlaşdırın. Çünki saat 14-dən sonra daxili süstlüyünüz yüksələ bilər. Axşama doğru maraqlı insanlarla rastlaşacaqsınız. Bu gün borc almayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadın hamiləlikdə yağlı yeyirsə...



Hamiləlik vaxtı yağlı yeməklər yeyən qadınlar qız nəvələrinə böyük pislik edirlər. Türkiyə mətbuatının xəbərinə görə, bu cür qidalanan qadınların qız nəvələri döş xərçənginə daha tez yaxalanırlar. Alimlər bunu təsdiqləmək üçün öncə hamilə siçanları testdən keçirib. Məlum olub ki, hamilə vaxtı yağlı yeməklər yeyən qadınlar xərçəng riskini təkcə qızlarının qızına yox, eyni zamanda oğullarının qızlarına da keçirir. Alimlər bu yoluxma mexanizmini tam bilməsələr də, ehtimal edirlər ki, buna səbəb döş toxumalarındakı genetik dəyişiklikdir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.